**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİYYATIN İNKİŞAFINDA STRATEJİ YOL XƏRİTƏLƏRİNİN TƏSİRİNİN TƏDQİQİ” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Əsgərli Hacəsgər Fuad**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**“____” ________________ 2020-ci il**

# “AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİYYATIN İNKİŞAFINDA STRATEJİ YOL XƏRİTƏLƏRİNİN TƏSİRİNİN TƏDQİQİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060409 - Biznesin idarə edilməsi

**İxtisaslaşma:** Biznesin təşkili və idarə edilməsi

**Qrup:** 112


**Magistrant:**
**Əsgərli Hacəsgər Fuad oğlu**

**____________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Xudiyeva Pikəxanım Tahir qızı**

**___________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**_______________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**___________________imza**


**BAKI – 2020**

## Elm andı

Mən, Əsgərli Hacəsgər Fuad oğlu and içirəm ki, “Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafında strateji yol xəritələrinin təsirinin tədqiqi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİYYATIN İNKİŞAFINDA STRATEJİ YOL XƏRİTƏLƏRİNİN TƏSİRİNİN TƏDQİQİ


## XÜLASƏ

**Mövzunun aktuallığı: Azərbaycanın yeni iqtisadi siyasəti iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sahəsinin tərəqqisinə, dayanıqlı və rəqabətqabliyyətli milli iqtisadiyyatının yaradılmasına yönəldilmişdir. Ölkənin perspektiv inkişaf məqsədlərinin və istiqamətlərinin təyin olunması, onların reallaşdırılması üçün milli iqtisadiyyat və onun əsas sektorlarının SYX sənədinin qəbulu iqtisadi siyasət və islahatların dayanıqlığının təmin olunması üçün iqtisadiyyatın mövcud vəziyyətini təhlil etməyə və yeni iqtisadi tərəqqi strategiyasının hazırlanmaq üçün olduqca aktualdır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədini ölkə iqtisadiyyatı və onun sahələri üzrə SYX-nin əsas istiqamətləri və onun əsas prinsiplərinin, təkmilləşmə istiqamətlərinin tətqiqi təşkil edir.**

**İstifadə olunmuş tədqiqat metodları: Strateji yol xəritələrinin iqtisadi nəticələrinə dair GZİT təhlili aparılmış, o cümlədən Azərbaycanın milli iqtisadiyyatının inkişafında dair təhlililərin aparılmasında E-views 10 program analizindən Diki-Fuller (ADF) vahid kök testi, VAR modeli, Avtokorelyasiya test nəticələri, Normallıq Testi, Heteroskedastiklik Testi, Johansen testi, VECM modelinin nəticələri istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə SYX, milli iqtisadiyyatın tərəqqisinə dair qanunlar və dövlət proqramları, AR İqtisadiyyat Nazirliyinin məlumatları, Dövlət Satistika Komitəsininnin hesabatlar.**

**Tədqiqatın məhdudiyyətləri: Statistik məlumatların ilkin mənbələrdən müəssisə və təşkilatlardan alınmasının çətinliyi.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatda aparılan ekonometrik analiz nəticəsində strateji yol xəritələrinin iqtisadi inkişafa dair planlarının reallaşdırılması ilə iqtisadi inkişafın ÜDM-ə münasibətdə müsbət təsirinin olduğu müəyyən olunmuşdur.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Tədqiqat işindən mövzu üzrə tədqiq və təhlilin aparılmasında, buraxılış işlərinin və elmi məqalələrin yazılmasında, SYX-nin əhəmiyyəti və mahiyyətinin təyin olunması və geniş auditoriyada təbliğində istifadə edilə bilər.**



***Açar sözlər: iqtisadi, inkişaf, xəritə.***

**STUDY OF THE EFFECT OF STRATEGIC ROAD MAPS ON ECONOMIC DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN**


## SUMMARY

**The actuality of the subject: Azerbaijan's modern economic policy is aimed at economic diversification, development of the non-oil sector, creation of a stable and competitive national economy. Defining the country's long-term development goals and directions, adopting a strategic roadmap for the national economy and its key sectors for their implementation is very important to analyze the current state of the economy and develop a new economic development strategy to ensure the sustainability of economic policies and reforms.**

**Purpose and tasks of the research: The main purpose of the study is to study the main directions of strategic roadmaps for the country's economy and its sectors and its main principles, directions for improvement.**

**Used research methods: SWOT analysis on economic results of strategic road maps, including Diki-Fuller (ADF) single root test from E-views 10 program analysis, VAR model, Autocorrelation test results, Normality Test, The results of the Heteroskedasticity Test, the Johansen Test, and the VECM model were used.**

**The information base of the research: Strategic roadmaps for the perspective development of the national economy, laws and state programs for the development of the national economy, data from the Ministry of Economy of the Republic of Azerbaijan, reports of the State Statistics Committee.**

**Restrictions of research: Difficulty in obtaining statistical data from primary sources, enterprises and organizations.**

**The novelty and practical results of investigation: As a result of ecometric analysis, it was determined that the economic impact of economic development on GDP is realized through the implementation of strategic roadmaps for economic development.**

**Scientific-practical significance of results: The research can be used to conduct research and analysis on the topic, to write dissertations and scientific articles, to determine the importance and essence of strategic roadmaps and to promote them to a wide audience**



***Keywords: economic, development, map.***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ADF** | Augmented Dickey Fuller |
| **ADSK** | Azərbaycan Dövlət Statistika Komitəsi |
| **ETT** | Elmi-Texniki Tərəqqi |
| **GDP** | Gross Domestic Product |
| **GZİT** | Güclü Zəif İmkanlar Təhlükələr |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **SKSP** | Sumqayıt Kimya Sənaye Parkı |
| **STY** | Strateji Yol Xəritəsi |
| **ÜDM** | Ümum Daxili məhsul |
| **ÜMM** | Ümümi Milli Məhsul |
| **VAR** | Value At Risk |
| **VECM** | Vector Error Correction Model |

## M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| | **GİRİŞ ............................................** | **8** |
| **I FƏSİL.** | **İQTİSADİYYATIN İNKİŞAFINDA STRATEJİ YOL XƏRİTƏLƏRİNİN TƏSİRİNİN TƏDQİQİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI ..........................** | **12** |
| **1.1.** | Milli iqtisadiyyatın dinamik və davamlı inkişafının təmin edilməsinin tədqiqinin elmi-metodoloji əsasları ...................... | 12 |
| **1.2.** | Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin tətbiqinin mahiyyəti, iqtisadi inkişaf modelinin əsas strateji məqsədləri və konseptual əsasları ...... | 17 |
| **II FƏSİL.** | **STRATEJİ YOL XƏRİTƏLƏRİNİN KONSEPSİYASINA UYĞUN OLARAQ AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİYYATIN İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ .........................................** | **28** |
| **2.1.** | Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının mövcud vəziyyətinin təhlili ..................................................... | 28 |
| **2.2.** | Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafında Strateji Yol xəritəsinin rolunun qiymətləndirilməsi ................ | 41 |
| **III FƏSİL.** | **AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİYYATIN İNKİŞAFINDA STRATEJİ YOL XƏRİTƏLƏRİNİN TƏSİRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN PRİORİTETLƏRİ ..........** | **52** |
| **3.1.** | Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının təkmilləşdirilməsi istiqamətləri ................................................ | 52 |
| **3.2.** | Strateji yol xəritələrinin istiqamətlərinə uyğun olaraq iqtisadiyyatın inkişafının prioritetləri ...................................... | 62 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR ..................................................** | **73** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI ................** | **75** |
| | **ƏLAVƏLƏR ...................................................................** | **79** |
| | Cədvəllərin siyahsı ................................................................ | 81 |
| | Şəkillərin siyahsı .................................................................... | 81 |
| | Qrafiklərin siyahısı ................................................................ | 81 |
| | Sxemlərin siyahısı .................................................................. | 81 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Dövlətimiz müstəqilliyini qazanaraq özünün bütün yerüstü, yeraltı təbii sərvətlərinə sahib oldu. Eyni zamanda indiki və gələcək nəsillərin maraqları və mənafeləri naminə ekoloji sistemin tarazlığına toxunmadan dövlətin malik olduğu bütün resurslardan xarici mühiti qorumaqla effektiv şəkildə istifadə edərək, onların bütün vahidləri hesabına yüksək nəticə əldə etməklə dayanıqlı və davamlı iqtisadi tərəqqi əldə etməsi AR-da perspektiv üçün təyin olunan sosial-iqtisadi strategiyanın əsas etibarı ilə ana xəttini təyin etməlidir. Bu baxımdan, dayanıqlı və güclü iqtisadi tərəqqi milli iqtisadiyyatın elə tərəqqisinə əsaslanır ki, onun nəticəsində cəmiyyətin mövcud ehtiyaclarının qarşılanması zamanı gələcək nəsillərin fasiləsiz olaraq çoxalan tələbatların da tam olaraq ödənilməsi qabiliyyətini zəiflətməsin.

Dünya iqtisadiyyatında son dövrlər gedən proseslər, ölkənin mürəkkəb xarici iqtisadi mühiti, makroiqtisadi və maliyyə vəziyyətinin korlanması, neftin qiymətlərinin aşağı düşməsilə ölkənin neft gəlirlərinin azalması Azərbaycan Respublikasının iqtisadiyyatına ciddi təsirlər göstərmişdir. Bu kimi ciddi hallar qlobal iqtisadi böhranlı şəraitə adaptasiyanı iqtisadi inkişafın yeni modelinin formalaşdırılmasını zərururətə çevirdi. Azərbaycanın müasir iqtisadi siyasəti iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sahəsinin tərəqqisinə, dayanıqlı və rəqabətqabliyyətli milli iqtisadiyyatının yaradılmasına yönəldilmişdir. Ölkənin perspektiv inkişaf məqsədlərinin və istiqamətlərinin təyin olunması, onların reallaşdırılması üçün dövlət başçısının 2016-cı il dekabr ayının 6-sında imzaladığı fərmanla milli iqtisadiyyatın perspektivi; qaz və qeyri-neft sənayesinin tərəqqisi; kənd təsərrüfatında məhsuldarlığın artırılması, müvafiq sahə məhsullarının becərilməsi, tədarükü və emalı; KOS səviyyəsində əhali üçün istehlak mallarının istehsalı; ağır və maşınqayırma sənayesinin tərəqqisi; loqistika və ticarət; ixtisaslaşmış turizm sənayesi; əlverişli qiymətlərlə mənzil təminatı; peşə təhsili və təlimi; maliyyə xidməti; telekommunikasiya və İKT və kommunal xidmət üzrə “Milli iqtisadiyyat və onun əsas sektorlarının strateji yol xəritəsi” təsdiq edilmişdir.

Bu sənəd yeni olmaqla həyata keçirilən iqtisadi siyasət və islahatların dayanıqlığının təmin olunması üçün iqtisadiyyatın mövcud vəziyyətini təhlil etməyə və yeni iqtisadi inkişaf strategiyasının hazırlanmaq üçün lazımdır. Dayanıqlı iqtisadi artımın təmin edilməsi məqsədilə iqtisadiyyatın aparıcı sahələrinin və həmçinin iqtisadi infrastrukturun yaradılmasına xidmət edən dəstəkverici sektorların tərəqqi strategiyasının düzgün müəyyən edilməsi vacib məsələlərdəndir. Eyni zamanda əsas məsələlərdən biri də SYX-nin başlıca istiqamətlərinin əsas prinsipləri dəqiq müəyyən edilməsi və bütün sektorlar üzrə nəzərə alınması vacibdir. Bu baxımdan tərəfimizdən seçilən dissertasiya işi mövzusu aktual hesab edilir və onun hərtərəfli araşdırılması qarşıda duran mühüm vəzifələrdəndir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Müasir şəraitdə iqtisadiyyatın inkişafında strateji yol xəritələrinin təsirinin tədqiq olunması və araşdırılması, onun milli iqisadiyyatın inkişafına təsiri və bu sektorda müəyyən uğurların əldə olunması məsələləri araşdırmaçılar tərəfindən tədqiq olunmuş və hazırdada edilməkdədir. Müasir iqtisadi əlaqələrinin yaranması, səmərəli iqtisadi inkişafın həyata keçirilməsi kimi aktual problemlər dünyanın görkəmli alimlərinin, o cümlədən ölkə iqtisadçılarının da diqqət mərkəzində olmuşdur. Mövzu ilə əlaqədar qoyulmuş məsələlərə yerli və əcnəbi iqtisadçı alimlərin adları öz əksini dissertasiyanın ədəbiyyat siyahsında ehtiva edir. Mövzunun geniş araşdırılmasına baxmayaraq geniş elmi dairələrdə diqqət mərkəzində qalmaqdadır və gələcək tədqiqinə ehtiyac vardır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədini ölkə iqtisadiyyatı və onun sektorları üzrə SYX-nin başlıca istiqamətləri və onun əsas prinsiplərinin, təkmilləşmə istiqamətlərinin tətqiqi təşkil edir. Müəyyən edilmiş məqsədə uyğun olaraq tədqiqatın vəzifələri kimi müəyyən edilmişdir:

➢ Milli iqtisadiyyatın dinamik və davamlı tərəqqisinin təmin olunmasının tədqiqinin elmi-metodoloji əsaslarının tətqiqi

- Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sahələri üzrə SYX-nin tətbiqinin mahiyyəti, iqtisadi tərəqqi modelinin əsas strateji məqsədləri və konseptual əsaslarının müəyyənləçdirilməsi
- Azərbaycan Respublikasında iqtisadiyyatın tərəqqisinin mövcud vəziyyətinin təhlili
- Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafında SYX-nin rolunun qiymətləndirilməsi
- Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi
- SYX-nin istiqamətlərinə əsasən iqtisadiyyatın inkişafının prioritetlərinin araşdırılması

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə strateji yol xəritəsinin əsas istiqamətləri təşkil edir. Predmetini isə SYX-nin əsas istiqamətlərinin əsas prinsipləri təşkil edir.

**Tədqiqat metodları.** Dissertasiya işində analitik və müqayisəli, statistik təhlil, ümumiləşdirmə və sistemli yanaşma tətbiq edilmiş, ən kiçik kvadratlar üsuluna əsaslanan düz-xəttli trend modelini hesablaması əsasında ÜDM-un həcminin ümumi iqtisadi tərəqqi meylini və proqnozununa dair hesablamalar aparılmış, SYX-nin iqtisadi nəticələrinə dair GZİT təhlili aparılmış, o cümlədən Azərbaycanın milli iqtisadiyyatının inkişafında dair təhlililərin aparılmasında E-views 10 program analizindən Diki-Fuller (ADF) vahid kök testi, VAR modeli, Avtokorelyasiya test nəticələri, Normallıq Testi, Heteroskedastiklik Testi, Johansen testi, VECM modelinin nəticələri istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazasını yerli və xarici mütəxəsislərin, iqtisadçı-alimlərin bu kimi mövzulara həsr edilmiş elmi əsərləri, milli iqtisadiyyatın perspektiv tərəqqisi üzrə SYX, AR Prezidenti İlham Əliyevin çıxışları, qanunlar və dövlət proqramları, AR İqtisadiyyat Nazirliyinin məlumatları, DSK-nin rəsmi saytı, internet resursları və digər bu kimi rəsmi qaynaqlar təşkil etmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Statistik məlumatların ilkin mənbələrdən müəssisə və təşkilatlardan alınmasının çətinliyi.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatda aparılam ekonometrik analiz nəticəsində SYX-nin iqtisadi inkişafa dair planlarının reallaşdırılması ilə iqtisadi tərəqqinin ÜDM üzərində müsbət təsirinin olduğu təyin olunmuşdur.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Tədqiqat işindən mövzu üzrə tədqiq və təhlilin aparılmasında, buraxılış işlərinin və elmi məqalələrin yazılmasında, SYX-nin əhəmiyyəti və mahiyyətinin təyin olunması və geniş auditoriyada təbliğində istifadə edilə bilər.

# I FƏSİL. İQTİSADİYYATIN İNKİŞAFINDA STRATEJİ YOL XƏRİTƏLƏRİNİN TƏSİRİNİN TƏDQİQİNİN NƏZƏRİ –METODOLOJİ ƏSASLARI

## 1.1. Milli iqtisadiyyatın dinamik və davamlı inkişafının təmin edilməsinin tədqiqinin elmi-metodoloji əsasları

Milli iqtisadi tərəqqi xüsusiyyətinə qloballaşma proseslərinin müsbət, eyni zamanda da mənfi təsirini doğru şəkildə dəyərləndirmədən dövlətin iqtisadi effektivliyini, milli rəqabət üstünlüklərini, həmçinin təhlükəsizliyini strateji baxımdan qiymətləndirmək, onun dayanıqlı və davamlı iqtisadi tərəqqiyə keçidini əməli nöqteyi-nəzərdən gerçəkləşdirmək olduqca mürəkkəbdir.

Klassik nəzəriyyəyə görə iqtisadi tərəqqinin sürətləndirilməsi ilk növbədə iqtisadi resurslarla təyin olunur. Aydındır ki, 20-ci əsrdə sahibkarlıq artıq innovasiya iqtisadi tərəqqinin çox əhəmiyyətli faktoruna çevrilmişdi. Başqa sözlə desək, ETT-nin uğurlarının istehsalda mütləq şəkildə tətbiq edilməsi əməyin məhsuldarlığını, fond verimini çoxaltmaq, material tutumu azaltmaqla maddi vəsaitlərin hər bir vahidindən daha da çox nəticə almağa təkan verirdi. Sadaladıqlarımızdan başqa 20-ci əsrin axırında qloballaşma prosesləri sonrasında texniki və texnoloji uğurların İEÖ-dən tədricən bu prosesə yenicə qovuşan İEOÖ keçməsi iqtisadi artımın dünya səviyyəsində sürətlənməsinə səbəb oldu ( Demir, Ö. 2016).

Bir müddət sonra, Rikkardo belə qənaətə gəldi ki, dünya səviyyəsində qida ehtiyatları ədədi silsilə, ölkə əhalisi isə həndəsi silsilə ilə çoxalır. Nəticədə o, həqiqətən də gələcək dövrlərdə dayanıqlı və davamlı iqtisadi tərəqqinin zəifləyəcəyinə işarə edirdi. Rikkardonun iqtisadi modelində kənd təsərrüfatı sektorunda gəlirlərin azalmasını təkcə torpağın qıtlığı ilə deyil, bunun tam əksinə zamanla onun keyfiyyətinin daha da pisləşməsi ilə açıqlayırdı. Ona görə, sözügedən mənfi proseslərin əngəllənməsi üçün kənd təsərrüfatına ETT-nin uğurlarını tətbiq edilməsi ilə torpaq sahələrinin bütün vahidlərindən daha da çox

gəlir əldə edə bilər ki, nəticədə gəlirlərin azalması dayana bilər. Bununla yanaşı, kənd təsərrüfatı sektoruna kapital qoyuluşlarının çoxalması orada fəaliyyət göstərənlərin əmək haqlarını çoxaltmaqla sonradan gəlirləri azaldan amil kimi çıxır edər. Bu iqtisadçılardan fərqli olaraq Mill qeyd edirdi ki, texniki tərəqqi yalnıza insanların maddi tələbatlarının deyil, eyni zamanda da estetik və təhsil tələbatlarının qarşılanmasına şərait yaradar. Marksın fikrincə, təbii resursların maksimum istismar olunması kapitalizmin qeyri-stabilliyini əsaslandıran bir amil olmaqla, o, izafi dəyər qanunu ilə lap çox artır. Tanınmış iqtisadçı Piqu qeyd edirdi ki, iqtisadi tərəqqinin təbiətlə təmin edilməsində dövlət xüsusi rol oynamalıdır. Eyni zamanda da, cəmiyyət və təbiətin tərəqqisinin qarşılıqlı əlaqəsinə dair Robert Kousun fikirləri üstünlük təşkil edir (Hall, P., 2015: s.148). Robertin fikrincə, təbii resurlardan istifadə edilmə sektorunda mövcud məsələlərin təməlində, cəmiyyətdə təbii resurslara, həmçinin ekoloji tarazlığın yaradılması ilə əlaqədar konkret şəkildə təyin edilmiş mülkiyyət hüququnun olmaması dayanır. Bu baxımdan o, qeyd edirdi ki, optimal ətraf mühit bazar əlaqələri əsasında icra edilməli, dövlət isə sözügedən prosesin realizə olunmasına xüsusi nəzarət etməlidir. Uzun illərin təcrübəsindən məlum olur ki, İEÖ-də belə sözügedən müddəaları əməli olaraq icra etmək əslində mümkünsüzdür.

20-ci əsrin sonlarında İEÖ-də baş verən iqtisadi böhranlar iqtisadçıları və siyasətçiləri iqtisadi sistemlərin mühüm hesab edilən prioritetlərinə onların istiqamətlərinə təkrardan nəzər yetirilməsini obyektiv bir zərurətə çevirdi.

Güclü, dinamik, dayanıqlı iqtisadi tərəqqi konsepsiyası bəşəri bir problem kimi ilk dəfə 20-ci əsrin II yarısında yaradılmışdır. Sözügedən konsepsiyanın tərtib olunmasına tələb, ilk növbədə cəmiyyətdə sosial-iqtisadi tərəqqinin xarici mühitinin müdafiəsi, həmçinin təbii resurslardan effektiv şəkildə istifadə edilmə, idarə olunmasının balanslaşdırılmış şəkildə həyata keçirilməsi zərurətindən irəli sürülmüşdür ( Dugger, W., 2017: s.1549-1551).

Sözügedən problemin faydasının dəyərləndirilməsi ilə BMT, həmçinin YUNESKO sürətli iqtisadi tərəqqiyə keçidi, 21-ci əsrin əsas prioriteti kimi qeyd

etmiş, 2005-2014-cü illəri isə iqtisadi inkişafın araşdırılması, eyni zamanda da tədrisi onilliyi elan etmişdir ( İ. H. Əliyev, R.Mehtiyev, 2018).

İEÖ-in tarixi təcrübəsindən məlumdur ki, qloballaşma prosesi milli iqtisadiyyatın effektivliyi, rəqabətqabiliyyətliliyi, iqtisadi təzlükəsizliyi, son olaraq onların effektiv qarşılıqlı asılılığı və qarşılıqlı əlaqənin təmin edilməsi sonda milli iqtisadiyyatın iqtisadi tərəqqisinin təmin edilməsinin çox mühüm şərtidir. Sadalananlar mövcud reallıqların dəyərləndirilməsi ilə milli iqtisadi tərəqqinin özünün optimal strategiyasının təyin edilməsini zərurətə çevirir. Belə olduqda hazırlanan iqtisadi tərəqqi strateji proqramların icra olunması imkanları təyin olunmalı, ən əsası isə onlar çevik olmaqla sürətli iqtisadi tərəqqinin təmin olunması ilə əlaqədar tez-tez yeniləşməli, həmçinin düzəliş edilməlidir. Bu halda ciddi problemlərdən biri, milli iqtisadiyyatın daxili, həmçinin xarici bölmələrinin optimal əlaqəsinin təmin edilməsi, onun iqtisadi açıqlığının optimal həddinin təyin edilməsi öz əhəmiyyətliliyi ilə fərqlənir (Aksoy, Ş. 2018).

Sürətli iqtisadi tərəqqi konsepsiyasına əsasən belə sivil bir yanaşma var ki, sosial – iqtisadi sistemlərin tərəqqi modellərinin xüsusiyyətindən asılı olmayaraq iqtisadi tərəqqinin elə bir səviyyəsini yaratmaq lazımdır ki, ETT-nin tətbiq edilməsi, tərəqqisi artdıqca insanların mütəmadi olaraq yaşayış prinsiplərinə istənilən səviyyədə riayət edilməsin həm də ətraf mühitin tarazlığına ziyan dəyməsin. Təhlildən məlum olur ki, təcrübədə tərəqqi konsepsiyasının təkamülü prosesində iki cür yanaşma daha nəzərəçarpandır:

I yanaşma zamanı güclü iqtisadi tərəqqinin dinamikasını, mahiyyətini, davamlı və dayanıqlı iqtisadi inkişafın müəyyən olunması meyarları o cümlədən güclü iqtisadi tərəqqinin səviyyəsi xüsusiyyətlərinin verilməsi üçün istifadə edilmə indikatorların inkişaf etdirilməsini özündə əks etdirir ( Bedirhanoğlu, P., 2017: s.5-6).

II yanaşma isə, iqtisadiyyatın güclü iqtisadi tərəqqi konsepsiyasının təkamülü özünə daha da çox tərəqqinin idarə olunmasının forma və üsullarının inkişaf etdirilməsi məsələlərini aid edir. Qloballaşma prosesi zamanı bir çox dövlətlərdə güclü iqtisadi tərəqqi tipinə keçidin zəruriliyi, ölkə əhalisinin artıqlığı təbii

resursların qıtlığı ilə əsaslanmışdır. Bu qeyd edilənlərlə bərabər, bir çox dövlətlərdə güclü iqtisadi tərəqqiyə keçidin vacibliyi isə daha da çox xarici mühitin pisləşməsindən yaranmışdır.

Sadaladıqlarımızın qiymətləndirilməsi ilə AR-nın sahib olduğu təbii resurslar, intellektual potensial ölkəmizin qloballaşmada aktiv iştirakı bu dövrdə bütün bu istiqamətlər üzrə yaradılan xüsusi insan inkişafı konsepsiyasını tərtib olunmağa, həmçinin gerçəkləşdirməyə imkan verir. Ə.Əhmədov bu sözügedən prosesləri çox doğru şəkildə dəyərləndirərək belə yazır: Azərbaycanın Milli iqtisadi tərəqqi modeli ancaq bu gün deyil, bunun əksinə gələcək dövrdə də dövlətin qarşısında dayanan sosial və iqtisadi öhdəliklərin icra edilməsi – iqtisadiyyatın dayanaqlı tərəqqisinin, həmçinin sənayenin strukturunun inkişaf etdirilməsi effektivliyinin yüksəldilməsi, yüksək artım templərinin sabit saxlanması, qeyri-neft sektorunun tərəqqisinin sürətləndirilməsi, bölgələrin kompleks, yüksək tərəqqi səviyyəsinin təmin edilməsi, iqtisadi tərəqqinin innovasiya xüsusiyyətinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, ölkə əhalisinin maddi rifahının yüksəldilməsi kursunun davam etdirilməsi və s. üçün dayanıqlı təməl yaradır.

Respublikamız müstəqilliyini qazandıqdan sonra yer üzündə yaranan qloballaşma proseslərinə aktiv şəkildə qoşulması iqtisadi tərəqqinin artım faktorlarının nisbətinə, həmçinin səviyyəsinə ciddi şəkildə təsir göstərmişdir. Bu zaman iqtisadi nəzəriyyədə yeni bir tərəqqiyə nail olmaq modeli yaranır. Ölkənin sosial və iqtisadi tərəqqisinin İEÖ-in səviyyəsindən xeyli geri qalmasını ortadan qaldırmaq məqsədini qarşıya qoyan iqtisadi tərəqqi strategiyası iqtisadi əsərlərdə haqlayıcı iqtisadi tərəqqi modeli adlandırırdı ( Mikayılova N. Y., Bağırov M. M., 2018: s.96).

Tarixən haqlayıcı iqtisadi tərəqqinin iki modeli olmuşdur: idxalı əvəzləyən, ixraca yönəldilən tərəqqi. Təcrübədən məlumdur ki, qloballaşma dövründə idxala istiqamətləndirilən liberal, həm də mümkün qədər effektiv tənzimləmə iqtisadi tərəqqi modelinə keçid daha da məqsədəuyğun hesab edilir. Qloballaşma prosesinin baş verdiyi bir şəraitdə xarici iqtisadi əlaqələrin, eyni zamanda da resursların hərəkətinin liberallaşması zamanı milli iqtisadiyyatın yüksək rəqabət

qabiliyyətliyinin təmin edilməsi uyğun sektorlarda texniki tərəqqinin innovasiya əsasında tətbiq edilməsini, bundan başqa iqtisadi mexanizmlərin sadalanan məqsədə yönəldilməsini bir zəruriyyətə çevirir.

Müasir dövr təcrübəsindən məlumdur ki, yeni yaradılan, həmçinin haqlayıcı modeli əsaslı bir sıra xarici ölkələr İEÖ-ə nisbətən müəyyən üstünlüklərə sahibdir. Misal üçün, hələ başlanğıc mərhələdə AR-da lazımı miqdarda təbii vəsaitlərin və ucuz işçi qüvvəsinin olması, təzə sistemə keçid zamanı iqtisadi əlaqələr sisteminin xüsusiyyəti qabaqcadan daha yüksək innovasiya prinsipləri bazasında iqtisadiyyatı yaratmağa şərait yaradır. Lakin bilirik ki, sosial-iqtisadi artımın hansı faktorlar hesabına baş verməsi cəmiyyət üçün mühüm şərtlərdəndir. Ekstensiv iqtisadi tərəqqi cəmiyyətin uzun müddətə davamlı və güclü iqtisadi tərəqqisini təmin edə bilməz. Buna görə də, yeni iqtisadi əsərlərdə elə iqtisadi artım daha effektiv sayılır ki, o əsas etibarı ilə intensiv faktorlar hesabına qazanılsın. Yəni, sözügedən iqtisadiyyatlarda təbii əmək, kapital, həmçinin maliyyə vəsaitlərinin hər vahidindən daha da çox son nəticə alınır. Buna görə də bu gün milli iqtisadiyyat səviyyəsində qəbul edilən proyektlər, proqramlar tərtib olunarkən ölkə daxilində istehsal faktorlarının balansının kəmiyyətcə hesablanması, keyfiyyətcə dəyərləndirilməsi vacib məsələdir. Beynəlxalq təcrübəyə görə, müəyyən bir sferada istehsal faktorlarının tətbiq edilməsinin çoxalması ilə onun başqa sektorlarda azalması ilə nəzərə çarpır.

Məlumdur ki, təkrar istehsalda müxtəlif sektorlar arasında onun fazalarına müvafiq sıx əlaqələr ortaya çıxır. Qloballaşma prosesinin baş verdiyi bir şəraitdə ölkəmizdə bazar iqtisadiyyatına keçidlə əlaqədar onlar arasında ənənəvi əlaqələr pozulmuş yaxud çox zəifləmişdi. Günümüzdə AR-da milli iqtisadi tərəqqi xüsusiyyəti bir çox hallarda beynəlxalq təkrar istehsal zamanı yaranan hallara uyğun olsa da, o daha da çox onun əsasən də mübadilə, ticarət sahəsinə məxsus müəyyən fazalarını əhatə edir. Sadalananlar  AR-da real iqtisadi sahənin tərəqqisi əsasında təkrar istehsal prosesinin yaranmasına mənfi təsir göstərir. Bu baxımdan, ölkəmizdə güclü iqtisadi tərəqqinin olması imkanları faydalı olaraq təkrar istehsal

prosesinin bazar mexanizminin qurulması səviyyəsindən daha çox asılı olacaqdır (Şəkərəliyev A., Şəkərəliyev Q., Əhmədov Ə , 2018). Vurğulamaq lazımdır ki, qeyd edilən prosesin özünün daxili hərəkətverici mexanizmini dəyərləndirmədən, öyrənmədən, onun təmin edilməsinin dövlət, həmçinin bazar mexanizminin optimal hədlərini bilmədən əməli əhəmiyyətli və gələcəyə istiqamətləndirilmiş qərarlar, tədbirlər sistemini yerinə yetirmək mümkünsüzdür.

Beləliklə, güclü iqtisadi tərəqqi konsepsiyasının mahiyyəti planetin resurslarından effektiv şəkildə və qənaətlə istifadə edilmə, təbii ətraf mühitin müdafiəsi, indiki və gələcək nəsillərin həyatının optimallaşdırılması şərtilə ehtiyacların qarşılanması, bütün dünyada sülhün bərqərar olmasına yönəlmiş sosial-iqtisadi və ekoloji tərəqqini nəzərdə tutur.

Sosial-iqtisadi tərəqqi problemləri ətraf ekosistemin təbii imkanlar ilə düzgün formada uzlaşdırılaraq həll edilməsini zərurətə çevirir. Milli iqtisadi tərəqqi modeli AR-nın üstünlüklərini özündə əks etdirən sintezləşmiş model olmalıdır. Milli iqtisadi sistemin özünəməxsus resurslar, prinsiplər, həmçinin fəaliyyət mexanizmindən ibarət olan strukturunda – tarixi, müasir dünyəvi əlamətlər, antoloji təsərrüfat sistemi, milli faktorlar əsas götürülməlidir.

## 1.2 Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin tətbiqinin mahiyyəti, iqtisadi inkişaf modelinin əsas strateji məqsədləri və konseptual əsasları

Yol xəritəsi idarəetmə obyektinin inkişafını müəyyənləşdirən strateji əhəmiyyətli hadisələri və onların meydana gəlməsinin ardıcıllığını əks etdirən ardıcıl idarəetmə prosesi ssenarisidir. SYX idarəetmə obyektinin inkişaf ssenarisində dərhal dəyişikliklər etmək və onu dəqiqləşdirməyə imkan verən interaktiv alətdir. Yol xəritəsi – strateji idarəetmə sahəsində geniş tətbiq olunan və strategiya ilə strateji plan arasında aralıq mövqe tutan idarəetmə konstruksiyasıdır. SYX idarəetmə qərarlarının planlaşdırılması və dəstəklənməsi üçün universal bir

vasitədir. Müxtəlif sahələr üçün tətbiq olunan konstruksiya, tətbiq etmə prinsipləri, eləcə də məqsədlərə nail olma prosesində dəyişikliklərə reaksiya verməkdə elastiklik yüksək texnologiyalar kimi bu cür yenilikçi və daim inkişaf edən sahənin idarə edilməsində yol xəritələrini istifadə etməyə imkan verir ( Baxşəliyev, R.A. 2018: s.3). Yol xəritəsi yüksək texnologiyalı müəssisədə texnoloji prosesi yaxşılaşdırmaq, məhsulların inkişafı etdirilməsi üçün də istifadə edilə bilər. Yol xəritələrinin istifadəsi diapozonu çox genişdir və yalnız biznes sahəsini deyil, dövlət idarəçiliyi də daxil olmaqla digər idarəetmə fəaliyyət növlərini əhatə edir.İlk öncə yol xəritəsinin nə üçün hazırlanmasını araşdıraq:

Yol xəritəsinin hazırlanma prosesi özlüyündə öyrənilən obyektin mövcud inkişaf potensialının hər hansı bir reviziyası, resurs təminatına tələbdə "dar" yerlərin, təhlükə və artım imkanlarının aşkar edilməsi və s. ibarətdir. Bəli təhlil baxılan obyektin müxtəlif ixtisas sahiblərinin iştirakı ilə çox aspektli ekspert müzakirələri əsasında aparılır. Nəzərə alsaq ki, yol xəritələri, o cümlədən ölkəmizdə hazırlanmış SYX əsas etibarilə iqtisadiyyatın strateji əhəmiyyətli sahə və istehsalları üzrə hazırlanır,o zaman "məhsul-texnoloji yol xəritəsi" adı altında yol xəritəsinin hazırlanma səbəblərini təyin etməyə çalışaq. Müxtəlif ədəbiyyatlarda səbəblər də müəyyən qədər fərqli təsvir edilir ( İmanquliyev . B.N, 2018: s.3).

Yol xəritəsi əsas etibarilə aşağıda sadalanan səbəblərdən təşkil olunur:

- Yol xəritəsinin yaradılması hər şeydən əvvəl bu prioritet sahələrin inkişafında iştitrak edən bütün sahə və amillərin effektiv şəkildə planlaşdırılmasıdır.
- Yol xəritəsi biznes strategiyası və bazar və texnoloji həllər haqqında məlumat arasında əlaqələndirici həlqə rolunda çıxış edir.
- Yol xəritəsinin hazırlanması dövlətin, təşkilatların nümayəndələri, alıcılar, təchizatçılar və obyektin inkişafında maraqlı olan digər tərəflər arasında məlumat mübadiləsini nəzərdə tutur, təmin edir. Yol xəritəsindən istifadə etməklə

hökumət, şirkət digər tərəflərə iqtisadiyyatın ayrı-ayrı sahələrində və müəssisələrində fəaliyyətin necə getdiyi barədə çox asanlıqla məlumat verə bilər.

- Yol xəritəsi özündə vaxt kimi dəqiq xüssiyyəti əks etdirir. Yol xəritəsinin hazırlanması ilə şirkət rəhbərlərinə özlərinin strategiya və planlarını reallaşdırmaq üçün lazımı anda texnologiya və gücə malik olmaları barədə arxayın olmağa imkan verir.
- Yol xəritəsi vasitəsilə şirkətin planında boşluqlar aşkarlanır ki, boşluqları vaxtında aradan qaldırmağa imkan verir və gələcəkdə problemlərin yaranmasının qarşısının alınmasına imkan yaradır.
- Yol xəritəsi şirkət rəhbərləri üçün özünəməxsus "yol göstərən" kimi hazırlanır və onlara aralıq nəticələri müqayisə etməyə və fəaliyyət istiqamətlərini korrektə etməyə imkan yaradır.
- Yol xəritəsinin bir neçə istiqamət üzrə hazırlanması və istifadəsi strateji olaraq şirkətin və ya ölkənin bütün əmtəə ixtisaslaşmasında texnologiyadan istifadə etməyə imkan verir.
- Yol xəritəsinin hazırlanmasının hər mərhələsində bir neçə daha vacib aspektlərə fokuslanılır: daxili və xarici istehslakçıların tələbləri və onun dinamikasına, investisiya və texnologiyaya və bu kimi digərlərini misal gstərmək olar. Beləliklə, vaxt və resurslardan maksimum səmərəli istifadə etməyə imkan yaranır. Yol xəritəsininköməkliyi ilə daha real məqsədlər təyin etmək olur.
- Yol xəritəsinin hazırlanması yaradıcı qrupun formalaşdırılmasını tələb edir. Yol xəritələmə prosesi qrup daxilində obyekt və onun inkişaf planın tam dərk edilməsi barədə ümumi anlam formalaşdırır ( Cavadov .N.A: 2017 s.5-8).

Yol xəritəsinin hazırlanması yalnız dövlət və istehsal müəssisələri üçün deyil, həmçinin elmi-tədqiqat təşkilatları üçün də əhəmiyyətlidir. Yol xəritəsinin hazırlanması bir neçə mərhələ üzrə aparılır.

Yol xəritəsinin hazırlanmasında strateji məqsədlərin müəyyən edilməsində formalaşdırılan analoji tələblərə (konkretlilik, ölçüləbilənlilik, uyğunluq, əlçatanlıq, zamanca müəyyənlilik) riayət olunmalıdır.

Yol xəritəsinin hazırlanması obyektin analizi prosesi, strategiya və mümkün inkişaf planını birləşdirir və bu prosesin əsas mərhələlərini zaman baxımdan üzündə əks etdirir. Yol xəritəsi hesabına şirkətlər mümkün perspektiv və inkişaf ssenariləri haqqında informasiya toplaya, potensial effekti hesablaya və sonra da daha az xərclə və yüksək verimli optimal yol seçə bilər. Onun hazırlanmasının əsasında gələcək vəziyyət variantlarının əsasının müəyyən edilməsi üçün proqnozun hazırlanması məqsədi olan bazar, texnologiya, məhsul, sahə və digər elementlər haqqında məlumatın toplanılması durur. Yol xəritəsi idarəetmə obyektinin inkişaf strategiyasını konkretləşdirməyə və qarşılıqlı əlaqəli fəaliyyətin nəticələrinin məntiqi olaraq müvafiq düşünülmüş tədbirlər kimi reallaşdırmağa imkan verir. Eyni zamanda strateji plandan fərqli olaraq daha çevik alət olması ilə fərqlənir və yol xəritəsində öz əksini tapmış daxili və xarici mühitə gedən proseslərdə baş verən dəyişikliklərə, idarəetmə sistuasiyasındakı dəyişikliklərə adekvat olaraq dərhal korrektə edilə bilər.

Yol xəritəsinin köməyi ilə idarəetmə vəziyyətinin üzrə korrektənin edilməsi sonrakı strateji qərarlar qəbul etmək üçün məlumat bazası kimi xidmət edir. Yol xəritəsinin əlavə üstünlüyü onun inkişafının məğzini və mexanizmini dərk etməyə, onun ümumi görüntüsünü daha dəqiq formalaşdırmağa imkan verən idarəetmə vəziyyətinin əyani müsbət xüsusiyyəti təşkil edir. Bu isə idarəetmə vəziyyətini yüksək dərəcə nəzərə alan strateji qərar qəbulu deməkdir. Yol xəritəsi "Forsayt" texnologiyası vasitəsilə proqnozlaşdırmalar aparıldıqda yayılmağa başladı ( İmanquliyev . B.N: 2018: s.3).

Yol xəritəsindən XX əsrin son rübündən etibarən iri transmilli şirkətlərdə strateji menecment sahəsində geniş istifadəyə başlamışdır. Keçən əsrin 80-ci illərində yol xəritəsi sənayedə elmi tədqiqat konstrultor işlərinin idarəedilməsi və bəsirəti metodologiyası kimi inkişaf etdirilmişdir.

İnkişaf etdikcə metodologiya və həm iri şirkətlərdə, həmçinin də ki, sənaye sektorlarında yüksək texnologiyanın inkişafı və strateji və texnoloji inkişaf sahəsində siyasətin formalaşdırılması məqsədilə geniş yayılmağa başlanıldı. Yol

xəritəsində konkret məhsulun, texnologiyanın, ayrı-ayrı şirkətin və bütölükdə sahənin inkişafı əksini tapa bilər. Onlar sosial, iqtisadi, beynəlxalq və digər fəaliyyət sahələrində strateji qərarların hazırlanmsında istifadə oluna bilər. İdarəetmə obyektinin miqyasından asılı olaraq yol xəritəsinin hazırlanmasına cəlb edilən mütəxəsislərin sayı da əhəmiyyətli sayda fərqli ola bilər. Bu müxtəlif profilli mütəxəsislərin peşəkar biliklərinin olmasını tələb edən təyin edilmiş məqsədlərin realizəsi üzrə hərəkətin kompleks xüsusiyyətləri ilə izah edilir.

İdarəetmə obyektindən və yol xəritəsindən istifadə xarakterindən asılı olaraq yol xəritələri bölünür: - məhsul yol xəritələri-məhsulun yaradılmasl, reallaşdırılması və inkişafı ssenarisi və ya zamanca məhsul xətti; - yol xəritəsnin hazırlanması bir qayda olaraq bahalı planlaşdırma aləti olmaqla əhəmiyyətli dərəcədə zaman və maliyyə xərcləri tələb edir. Yol xəritəsi tərkibi müxtəlif mütəxəsislərdən (məsələn, alimlər, maliyyəçilər, texnoloqlar, sosioloqlar, marketoloqlar) ibarət olmaqla işçi qrupunun formalaşdırılmasını nəzərdə tutur.

Obyektin mümkün inkişaf variantlarının müqayisəli qiymətləndirməsi üçün rəhbərə təyin edilmiş məqəslərin əldə edilməsinin daha üstün yolunun seçilməsinə imkan verən dəyər-səmərəlilik meyarı, balanslı göstəricilər sistemi və qiymətləndirmə sistemləri tətbiq edilə bilər. Konkret yol xəritəsi növünün seçilməsi və ya formalaşdırılması rəhbər işçilərin yaradıcı qabliyyətinin nəticəsi kimi dəyərləndirilir. O əsasən rəhbər işçilərin idarəetmə texnologiyasından asılıdır. Yol xəritəsi işlənilərkən idarəetmə obyekti haqqında ekspert məlumatlarından fəal istifadə nəzərdə tutulur. Ekspert məlumatlarından istifadə və ekspertlərin strateji idarəetmə prosesinə qoşulması mütəxəssislərin peşəkar təhlil və qiymətləndirməsini daha yaxşı nəzərə almağa imkan verir, xüsusilə də onların gələcək vəziyyətləri haqqında proqnoz nəzərə alınmaqla strateji qərarların işlənilməsi və qəbulunda özünü büruzə verir. Yol xəritəsi hadisələrin alternativ inkişaf ssenarisini də düşünməyə və daha əsaslandırılmış strateji qərarları qəbul etməyə imkan verir. Bu halda “dar yerlər” və onların tikişbəndləri daha nəzərə çarpan olur. Yol xəritələri reallaşdırılması fəaliyyətin müxtəlif sahələrinə aid olan

texnologiyaların, resursların, ekspertlərin qarşılıqlı əlaqəsini tələb edən strateji qərarların qəbulunda lokal və ya qlobal, kompleks xarakterli problemlərin həlli üçün hazırlana bilər.

Yol xəritəsinin işlənilməsində təbiətin özünün imkanları və riski nəzərə alınmalıdır. Yol xəritəsi idarəetmə obyektinin inkişaf ssenarisində dərhal dəyişikliyin və dəqiqləşdirmənin aparılmasına imkan verən interaktiv alətdir. Yuxarıda qeyd edildiyi kimi yol xəritəsinin istifadə diapozonu olduqca genişdir və biznes sahəsi ilə yanaşı dövlət idarəetmə sahəsini və digərlərini də əhatə edə bilər. Yol xəritəsinin köməkliyi ilə idarəetmə obyektinin müxtəlif profilli mütəxəssislər tərəfindən inkişaf yollarının çox aspektli ekspert qiymətləndirməsi əsasında təhlil edilir.

Yol xəritələməsi metodlarından istifadədə bir neçə mərhələni fərqləndirmək olar (https://cyberleninka.ru/article/n/razrabotka-tehnologicheskoy-dorozhnoy-karty-otrasley-realnogo-sektora-ekonomiki).

I mərhələ. Yol xəritəsinin işlənilməsinə hazırlıq. Bu mərhələdə həllini tələb edən mövcud idarəetmə vəziyyəti və problemlərinin olduğu bir şəraitdə yol xəritəsinin işlənilməsinin zəruriliyi, onun məqsədləri, aşkar edilmiş idarəetmə problemlərinin həllində maraqlı olan tərəflər müəyyən edilir. Bu mərhələdə yol xəritəsinin işlənilməsi prosesinin effektiv idarəetmə sisteminin işlənilməsi və yaradılması prosesi təşkil edilir. Çünki bu proses mürəkkəb və bahalı olmaqla çoxsaylı yüksək peşəkar mütəxəsislərin səylərinin birləşdirilməsini tələb edə bilər. Yol xəritəsinin reallaşdırılması üçün zəruri olan resursların maliyyələşdirmə həcminin və vaxtın qiymətləndirilməsi də vacib məsələlərdəndir ki, birinci mərhələdə həyata keçirilir.

II mərhələ. Yol xəritəsinin işlənilməsi. Bu mərhələdə idarəetmə obyekti (məhsul, texnologiya və resurslar) üçün tələbin müəyyən edilməsi və dəqiqləşdirilməsi kimi mühüm işlər həyata keçirilir. Bununla bərabər idarəetmə obyektinin fəaliyyət istiqamətlərinin bir neçəsi üzrə işləmələr aparıla bilər.

Strateji məqsədlərə nail olunmaq üçün alternativ variantlar müəyyən edilir. Məqsədlərə nail olmanın baxılan alternativ variantlarının istifadəsinin məqsədə uyğunluğu qiymətləndirililir və tövsiyyələr işlənilir. Bu mərhələdə yol xəritəsində təqdim edilən hər bir işin reallaşdırılması üçün zəruri olan bütün resurslarla təminatı müəyyən edilir. Bu mərhələdə aparılan işlər əsas etibarilə yol xəritəsinin işlənilməsi və idarəetmə prosesinin qrafa şəklində təqdimatı haqqında yekun hesabatın hazırlanması ilə yekunlaşır. Nəzərə almaq lazımdır ki, yol xəritəsinin işlənilməsinin nəticəsi əsasında hazırlanan hesabat sənədində məqsədlərə nail olmanın daha üstün alternativ variantının seçilə bilməsi üçün kifayət edəcək məlumatlar verilməlidir.

İkinci mərhələdə həmçinin idarəetmə obyektinin idarəetmə təsiri nəticəsində malik olacağı əsas keyfiyyət və xüsusiyyətlər müəyyən edilir, həmçinin onların qoyulmuş məqdələrə uyğunluğu yoxlanırlır.

III mərhələ. Yol xəritəsinin həyata keçirilməsi. Bu mərhələ təbii ki, vaxt baxımından ən uzun mərhələ hesab edilir. Bu mərhələdə ilk olaraq yol xəritəsinin ekspertizası və təsdiqi işləri aparılır. Bu zaman zərurət yarandıqda ekspertlər tərəfindən korrektələr edilir. Yol xəritəsinin reallaşdırılması üçün zəriri olan resurslar və plan tapşırıqlarının yerinə yetirilməsi müddəti, icraçıları da əhatə etməklə plan hazırlanır və icra edilir. Bu addımdan sonra yol xəritəsinin həyata keçirilməsi gedişi üzərində nəzarət təşkil edilir.

Qeyd edək ki, ölkə iqtisadiyyatı və onun aparıcı sektorlarının inkişafı üzrə SYX-nin əsas istiqamətlərinin təsdiq edilməsi haqqında ölkə başçısının fərmanı ilə təsdiq edilmiş yol xəritəsi ölkə iqtisadiyyatının bundan sonra yaxın bir neçə il necə inkişaf edəcəyi və əhalinin bu yol xəritəsindən nə gözləyə biləcəyi haqqında müxtəlif mülahizələrin formalaşmasına səbəb oldu.

Yuxarıda yol xəritəsinin nəzəri əsaslarına nəzər saldıqda ətraflı şəkildə verilən materiallara və hazırlanmış SYX-də əks olunmuş müddəalara əsaslanaraq söykənmək olar ki, bu sənəd dövlətin və özəl sektorun iqtisadiyyatın inkişafında rolunu dəqiq təsvir edir. Təqdimata görə hökumət investisya katalizatoru, xüsusi

sektor isə iqtisadi inkişafın lokomativi olmalıdır. Bunlarla bərabər iqtisadiyyatda yalnız xüsusi sektorun deyil kiçik və orta biznesin rolu artacaqdır.

Hökumət ilk növbədə istehsal sferasını və xidmət sektorunun inkişafının stimullaşdırılmasını planlaşdırmış və artıq bir neçə istiqamətdə məqsədlərə nail olunmuşdur. Yol xəritəsinin əsas vəzifəsi uzun müddət neft gəliri hesabına inkişaf edən iqtisadiyyatı balanslaşdırmaqdan ibarətdir. Bunu üçün artıq neçə ildir ki, iqtisadiyyatın daha mühüm sektorunun inkişafı istiqamətində fokuslanaraq ölkədə emal sənayesinin inkişafına önəm verir. Eyni zamanda qeyd edək ki, dövlət bir başa dövlət sektorunun deyil özəl sektorun yüksək gəlirli sahələrin inkişafına, yüksək ixtisaslı işçi qüvvəsinin formalaşmasına diqqəti artırmışdır.

Son illər dünya iqtisadiyyatında gedən proseslər, respublikamızın ətrafında formalaşmış olduğu xarici iqtisadi mühit, makroiqtisadi və maliyyə vəziyyətinin mürəkkəbləşməsi, dünya bazarında neftə olan qiymətlərin aşağı səviyyəyə düşməsi, eləcə də neftdən əldə olunan mənfəətin həcminin ötən dövrlərlə müqayisədə kəskin surətdə azalması ölkə iqtisadiyyatına öz neqativ təsirlərini göstərir. Bu isə iqtisadiyyatda qlobal böhran şəraitinə uyğunlaşmağı, eləcə də iqtisadi inkişafın reallaşdırılması istiqamətində tətbiq edilə biləcək mütərəqqi modelinin formalaşdırılmasını tələb edir. Azərbaycan Respublikasının müasir iqtisadi siyasəti iqtisadiyyatın diversifikasiyasına (şaxələndirilməsinə), neft sektoruna aid olmayan sahələrin inkişafına, dayanıqlı, rəqabətqabliyyətli milli iqtisadiyyatın formalaşdırılmasına istiqamətləndirilmişdir.

Azərbaycanın perspektiv inkişaf məqsədlərinin və istiqamətlərinin müəyyən edilməsi, onların icrasının təmin edilməsi üçün dövlət başçısının milli iqtisadiyyatın perspektiv inkişafı, kimya sənayesi də daxil edilmək şərtilə, neft-qaz sənaye sahələrinin, kənd təsərrüfatının inkişafı sahə məhsullarının istehsal həcminin artırılması, KOS təsərrüfatlarında, müəssisələrində istehlak mallarının istehsalı, Azərbaycanda ağır sənayenin və maşınqayırmanın inkişafı, xüsusi turizm sahələrinin və xidmətlərinin inkişafı, ölkədə loqistika və ticarətin inkişafı, maliyyə xidmətinin, informasiya və kommunikasiya texnologiyalarının inkişafı, qənaətbəxş

qiymət şərtlərilə mənzillərlə təminatda irəliləyişin təmin edilməsi, peşə, ümumtəhsil və ali təhsilin inkişafı, keyfiyyətli kommunal xidmətinin inkişafı və özəlləşdirmə üzrə bəlli strateji yol xəritəsi 2016-cı il 6 dekabr tarixində təsdiq edilmişdir (http://www.e-qanun.az/framework/34254, 2016).

Yol xəritəsi artıq yaxın bir neçə il üçün Azərbaycanın iqtisadi strategiyasının əsas sənədi olacaqdır. Dövlətin iqtisadi strategiyanın əsas xüsusiyyətlərindən biri onun inklyuzivliyi və əhatəliyi və əhali üçün əlçatanlığı ilə xarakterizə olunur. Strategiyaya uyğun olaraq müəyyən edilmiş məqsədlərə mərhələli nail olmaq üçün müvafiq tədbirlərin işlənib hazırlanmasını və reallaşdırılmasını tələb edir ki, bu da ölkə iqtisadiyyatın seqmentlərinə uyğun olaraq SYX-nin başlıca istiqamətləri üzrə iqtisadi dəyişikliklərin aparılmasını tələb edir. SYX düşünülmüş şəkildə iqtisadiyyatın və onun prioritet sahələrinin dayanıqlı inkişafının orta və uzunmüddətli perspektivdə təmin olunmasını nəzərdə tutan dövlət siyasətinin tərkib, yol göstərən mayakıdır. Ölkə prezidentinin qeyd edilən sərəncamına uyğun olaraq ölkə iqtisadiyyatı və onun on bir sektoru üzrə ayrı-ayrılıqda on iki SYX hazırlanıb (http://www.eqanun.az/framework/34254).

Maliyyə resursları isə dövlət və özəl mənbələrin hesabına formalaşdırılacağı nəzərdə tutulmuşdur. Bu yatırımlar qeyd edilən dövrlə bərabər gələcəkdə də planlaşdırılan işlərin yerinə yetirilməsi üçün əsas rolunu oynayacaqdır. Ölkə iqtisadiyyatının prioritet istiqamətləri üzrə yeni strateji əhəmiyyətli hədəflərin mərhələli şəkildə təyini Azərbaycan Respublikasına SYX-nin perspektiv dövr üçün nəzərdə tutulan ali məqsədlərinə nail olmaqda yardımçı olacadır. Vurğulandığı kimi, qeyd edilən strareji əhəmiyyətli sənədə söykənərək milli iqtisadiyyatın perspektiv inkişafı çərçivəsində dörd mühüm strateji hədəf təyin edilmişdir. Artıq tərəfimizdən göstərilmişdir ki, adıçəkilən sənədə uyğun olaraq Azərbaycan iqtisadiyyatının perspektivləri nöqteyi-nəzərdən 4 başlıca strateji məqsədə nail olunması nəzərdə tutulmuşdur. Sözügedən bu məqsədlərin və on bir sektorla bağlı strateji yol xəritələrinin reallaşdırılmasından sonra milli iqtisadiyyatın real və maliyyə sektorlarının tarazlı vəziyyətə gətirilməsi vasitəsi ilə dayanıqlı və sabit

iqtisadi inkişafın təmin olunması başlıca hədəf qismində çıxış edir. Haqqında danışdığımız sənəddə bir hədəf olaraq seçilən başlıca məsələlərdən daha biri nəzarət zərfi dövlətin sərəncamında olan hüquqi şəxslərin fəaliyyətində rasionallığın və effektivliyin yüksəldilməsi, habelə özəlləşdirmənin gerçəkləşdirilməsi vasitəsi ilə iqtisadi dinamikasının təmin olunmasını ehtiva edir. Bu sənəddə yalnız inkişaf hədəflərini deyil, həmçinin hər bir vektor üzrə qlobal tendensiyaları, həyata keçiriləcək işləri, zərurət təşkil edən investisiyaları və gözlənilən nəticələri özündə ehtiva edir. Biznes iqliminin daha da əlverişli səviyyəyə çatdırılmasına yönəlmiş işlərin həyata keçirilməsi nöqteyi-nəzərdən dövlətin biznesi sahəsinin tənzimləməsi alətlərinin və mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi, vergi-gömrük idarəçiliyi sferasında keyfiyyətin artırılması, bazara daxil olunması istiqamətində mövcud baryerlərin və maneələrin aradan qaldırılması yaxud onların mümkün qədər minimuma endirilməsi, bununla bərabər, məhdudiyyətsiz və sərbəst rəqabət şəraitinin təmin olunması prioritet istiqamətlər qismində dəyərləndirilir. Eyni zamanda, dövlətin sərəncamında olan təsərrüfat subyektlərin kommersiya yönümlü fəaliyyətinin (sənaye, nəqliyyat, rabitə, maliyyə xidmətləri və s.) məhdudlaşdırılması vasitəsi ilə özəl təşəbbüskarlıq üçün mövcud şəraitin miqyasının daha da genişləndirilməsi sənəddə başlıca məqsədlərdən biri qismində qəbul olunur.

İqtisadiyyatın inkişafında önəmli yer tutan xarici ticarətin, xüsusilə də ixra-cın diversifikasiyası prosesinin sürətləndirilməsi, rəqabətqabliyyətli məhsulların istehsalı və xidmətlərin təqdim ediləsini tələb edir. Ticari münasibətlərin dərinləşməsi və diversifikasiyası yeni-yeni iş yerlərinin də yaradılmasını zəruri edir. Bu baxımdan xarici ticarəti yalnız idxal və ixrac əməliyyatları kimi deyil, eyni zamanda ölkə vətəndaşlarının yüksək gəlirli iş yerləri ilə təminatı və ümumi milli məhsulun artırılmasının şərtləri kimi qəbul etmək lazımdır. İstehsal həcminin artması və ticarət dövriyyəsinin sürətlənməsi dövlət büdcəsinin formalaşmasına da əhəmiyyətli dərəcədə təsir etməklə onun ARDNF-nin maliyyə transfertlərindən

asılılıq dərəcəsini azaldılmasına şərait yaratmış olar və bu SYX-də qeyd edilən əsas vəzifələrdən biridir.

YX-nin əsas tərkib hıssələrindən biri olan ölkə sənayenin inkişafı üzrə Dövlət Proqramının (2015-2020-ci illər) mühüm istiqamətlərindən biri ölkə regionlarında aqro-sənaye və tenologiya parklarının, sənaye məhəllələrinin yaradılması və fəaliyyətlərinin gücləndirilməsidir (http://www.e-qanun.az/framework /28964, 2014). Hökumətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri ölkənin hər bir regionunun tarazlı və sürətli inkişafına nail olmaqdır.

SYX aparılan iqtisadi islahatlara müvafiq olaraq kompleks tədbirlərin işlənilməsi və reallaşdırılmasını, ölkədə keyfiyyətcə yeni iqtisadi inkişaf modelinin hazırlanmasını və formalaşdırılmasını təmin edəcəkdir. Qeyd edilən sənədin əsas məqsədi ölkə iqtisadiyyatında güclü diversifikasiya işlərinin aparılmasının təmin edilməsi, neft gəlirlərindən asılılığın aradan qaldırılması və ya azaldılmasına nail olma, qeyri-neft sektoru məhsullarının keyfiyyətinin yüksəldilməsi, istehsal həcminin artırılması və ixracın strukturu və həcminin artırılması, xarici ticarətin şaxələndirilməsi, əhalinin gəlirlərinin artırılması və rifah halının yaxşılaşdırılması, əlverişli biznes və investisiya mühitinin formalaşdırlması kimi mühüm məsələlərin effektiv həllini nəzərdə tutur.

Yol xəritəsində iqtisadiyyatın nəzərdə tutulan 11 sektoru ilə yanaşı hökumət daha 4 strateji məqsədlər müəyyən etmişdir, hansıların çərçivəsində bu sektorlar inkişaf etməkdədir. Birinci strateji məqsədə uyğun olaraq hökumət fiskal dayanıqlığının təmin edilməsi üzrə işlər aparır.

Monetar siyasət milli valyutamız olan manatın üzən məzənnə rejiminin tətbiqinə söykənir. Əslində isə hələ respublikada iqtisadiyyat və əhali psixoloji cəhətdən bu addımlara hazır deyil. Fiskal sabitliyin təmin edilməsi üçün hökumət fiskal siyasət çərçivəsi müəyyən etməyi və təbii resursların satışından əldə edilən gəlirlərin istifadəsi üzərində nəzarəti gücləndirməyin əhəmiyyətini vurğulayaraq bu istiqamətdə işlər aparmaqdadır.

SYX-də olduğu kimi, son zamanlarda qlobal sərmayə yatırımında hədəf ölkələr şəklində İEOÖ-in payı önəmli dərəcədə artırılmışdır. Cənub-Şərqi Asiya ərazisində yerləşən bəzi dövlətlər investisiyaların cəlb olunması nöqteyi-nəzərindən müsbət naticələr qazanmışlar. Belə bir mühitdə AR-nın da qlobal investisiya axınının hədəf nöqtəsi kimi olması üçün lazımi addımların atılması vacibdir. SYX-də ölkəmizin investisiya cəlbediciliyinin yüksəlməsi üçün biznes mühitinin inkişafı və özəl sahibkarlığın stimullaşdırılması yönündə önəmli addımların atılması nəzərdə tutulur ( Hacıyev, F.Ş ,2017).

Ölkə iqtisadiyyatı və prioritet sektorlar üçün yeni strateji hədəflərin müəyyənləşdirilməsi AR-na SYX-nin prioritetlərinin müsbət istiqamətləri ilə arzu olunan məqsədlərinə çatmağa imkan verir. Ətraf mühitdəki kəskin dəyişikliklər

qarşısında davamlı iqtisadi artım və dayanıqlığı qoruyan və hətta bir sıra göstəricilər üzrə inkişaf edə bilən Azərbaycan hökuməti uzunmüddətli perspektivdə strateji yol xəritələrinin tətbiqi ilə daha yüksək nəticələrə ümid edir və bir çox statistika bunu artıq təsdiqləyir.

Dünya İqtisadi Forumunun 2018-2019 Qlobal Rəqabətlilik Hesabatına uyğun olaraq, Azərbaycan 140 ölkə arasında öz mövqeyini yaxşılaşdırmışdır və reytinqdə 31-ci sırada yer alır (https://www.economy.gov.az/article/international-reports/21565).

SYX-də əks olunan tədbirlərin görülməsi, kənd təsərrüfatından tutmuş sənayeyə qədər, həm də əmək kapitalının tərəqqisi, iqtisadiyyatın bütün sektorlarını əhatə etməklə ölkə iqtisadiyyatının şaxələndirilməsinə, əlverişli iş mühiti və s. kimi məsələlərə, ümumi inkişafına müsbət təsir edəcəkdir.

Milli iqtisadiyyat və iqtisadiyyatın digər əsas sahələri üçün strateji yol xəritəsi ölkəmmizdə iqtisadi inkişafın vacib prioritetlərindən biridir, davamlı iqtisadi inkişafa əsaslanan rəqabət qabiliyyətliliyini, inklüzivliyi və sosial rifahın daha da yaxşılaşdırılmasını təmin edir.

Ölkə iqtisadiyyatı və prioritet sektorlar üçün yeni strateji hədəflərin müəyyənləşdirilməsi Azərbaycana strateji yol xəritəsinin prioritetlərinin müsbət istiqamətləri ilə arzuolunan məqsədlərinə çatmağa imkan verir. Ətraf mühitdəki kəskin dəyişikliklər qarşısında davamlı iqtisadi artım və dayanıqlığı qoruyan və hətta bir sıra göstəricilər üzrə inkişaf edə bilən Azərbaycan hökuməti uzunmüddətli perspektivdə strateji yol xəritələrinin tətbiqi ilə daha yüksək nəticələrə ümid edir və bir çox statistika bunu artıq təsdiqləyir.

Dünya İqtisadi Forumunun 2018-2019 Qlobal Rəqabətlilik Hesabatına əsasən, Azərbaycan 140 ölkə arasında öz mövqeyini yaxşılaşdırmışdır və reytinqdə 31-ci sırada yer alır. (https://www.economy.gov.az/article/international-reports/21565)

SYX-də əks olunan tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatından tutmuş sənayeyə qədər, həm də əmək kapitalının inkişafı, iqtisadiyyatın bütün sahələrini əhatə etməklə ölkə iqtisadiyyatının şaxələndirilməsinə, əlverişli iş mühiti və s. kimi məsələlərə, ümumi inkişafına müsbət təsir göstərəcəkdir.

Milli iqtisadiyyatın inkişafında əsas sahələrdən biri də infrastruktur idi. Məlumdur ki, ölkəmiz yalnız daxili infrastrukturun deyil, həm də beynəlxalq əhəmiyyətli infrastrukturun inkişafında fəal iştirak edir. Beləliklə, qlobal və regional əhəmiyyətli genişmiqyaslı infrastruktur və enerji layihələri Azərbaycanın təşəbbüsü və birbaşa iştirakı ilə həyata keçirilmişdir. Əlbətdə ki, müasir infrastruktur nəticəsində Xəzər dənizində və Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz boru kəməri ilə hasil olunan enerji ehtiyatları tərəfdaş ölkələrə və Avropaya yönəldilir.

Yeni istifadəyə verilmiş Cənub Qaz Dəhlizi, eləcə də TANAP layihəsi və 2020-ci ildə tamamlanan TAP layihəsi Azərbaycanın qlobal enerji təminatçısı mövqeyini daha da yaxşılaşdırır.

Ölkənin coğrafi mövqeyini nəzərə alaraq tranzit imkanlarından səmərəli istifadə üçün Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı, TRASECA Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin yaradılması və səmərəli istifadəsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Respublikanın ayrı-ayrı rayon və kəndlərində SYX çərçivəsində yüngül sənaye və sub-sektor müəssisələrinin yaradılması istiqamətində mühüm işlər görülür. Beləliklə, milli mədəni tariximizdə xüsusi yer tutan ipək, xalçaçılıq və digər sahələrin inkişafına xüsusi diqqət yetirilir. Ölkəmizdə yüngül sənayenin və onun müxtəlif sektorlarının bölgələrdə inkişafına nail olmaq üçün ölkə prezidentinin göstərişinə uyğun olaraq on bir bölgədə xalça emalatxanası istifadəyə verilib, daha on emalatxananın və beş yun emalı məntəqəsinin və SKSP-də yunəyirici və boyama fabrikinin tikintisi istiqamətində mühüm işlər davam etdirilir.

2019-cu ildə ölkə daxilində daha 9 xalça emalatxanası, üç boya və yun toplama məntəqəsi istifadəyə verildi.

Azərbaycanda qeyri-neft sahələrinin son dövr texnologiyalarına əsalanan inkişafına nail olmaq və məşğulluq problemlərinin həll olunması istiqamətində, habelə rayonda yaşayan əhalinin kənd təsərrüfatı ilə yanaşı sənaye istehsal

sahələrində fəaliyyət göstərmək istəyənlər üçün lazım olan şəraitin yaradılması və gənclərin mərkəzə yönəlməsi probleminin qarşısını almaq və milli resurslardan daha əlverişli şəkildə istifadə etmək üçün sənaye məhəllələri və aqroparklar yaradılır. Ölkənin ayrı-ayrı bölgələrində artıq müxtəlif sənaye müəssisələri fəaliyyət göstərir. Kimya Sənaye Parkı və Texnologiyalar Parkı Sumqayıtda, Balaxanıda, Mingəçevirdə, Pirallahıda və Qaradağda Sənaye Parkları, Hacıqabul Sənaye Məhəlləsi, Neftçala Sənaye Məhəlləsi, Masallı Sənaye Məhəlləsi və Sabirabad Sənaye Məhəllələri artıq fəaliyyət göstərirlər ki, bunların da nəzdində çoxsaylı müəssisə fəaliyyət göstərir. Bu sənaye parklarının rezidentləri sayılan müəssisələrdə elektron tədris vasitələri, tankerlər və gəmilər, maşınqayırma, mexaniki və hidrolik avadanlıqlar, metal konstruksiyalar, polad və polietilen borular, fitinqlər və şlanqlar, polimer məhsulları, kabellər, alüminium və plastik profillər, polipropilen, sürtkü yağları, texniki qazlar, pestisidlər istehsal edilir.(https://www.economy.gov.az/article/masallida-senaye-parklari-ve-mehellelerinde-istehsal-edilen-mebel-mehsullarinin-sergi-satish-merkezi-achilib/30260) Sənaye parklarında və məhəllələrdə istehsal olunan məhsullar yalnız daxili bazar tələbatını ödəmək məqsədilə istehsal edilmir, eyni zamanda "Made in Azerbaijan" brendi ilə xarici bazarlara da çıxarılır.

SYX-nin kənd təsərrüfatı istehsalı və emalı sisteminin istiqamətinə uyğun olaraq, müasir tələblərə və imkanlara uyğun olaraq kənd təsərrüfatının təşkili sahəsində yeni müasir emal müəssisələri aqroparklar, quşçuluq və damazlıq kompleksləri yaradılmışdır. Sənayenin uzunmüddətli saxlama qabiliyyətini artırmaq üçün Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə mövsümdən asılı olmayaraq tərəvəz və ixracı təmin etmək üçün genişmiqyaslı soyuducular tikilib istifadəyə verilmişdir. Növbəti illərdə ölkə daxilində 45 yeni kənd təsərrüfatı parkının, həmçinin 28 iri təsərrüfatın yaradılması planlaşdırılır. Məhz, elə bu məqsədlə təsərrüfat adamlarına və sahibkarlara güzəştli kreditlər verilir. Bu sahədə görülən tədbirlər nəticəsində məhsul istehsalı kəmiyyət və keyfiyyət baxımından yaxşılaşdı, çoxtərəfli məhsullarla özünü təminetmə səviyyəsi artdı, ixracın həcmi

artdı. Kənd təsərrüfatı məhsullarının və emal məhsullarının ixracı 28,6 faiz artmışdır.

Turizmin SYX-də prioritet sahə kimi milli iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyən edilməsi, turizm sahəsinin inkişafını sürətləndirmək üçün ölkəmizin regional və təbii sərvətlərindən istifadə edərək turizm sənayesi iştirakçıları ilə Azərbaycan Respublikası arasında birgə fəaliyyət və əməkdaşlığı asanlaşdırır, ölkə iqtisadiyyatında mühüm rol oynayan bu keyfiyyətin yaxşılaşdırılmasına kömək edəcəkdir. SYX tərəfindən təyin olunduğu dövrdə turizm sənayesinin inkişafına dövlət dəstəyi, yüksək keyfiyyətli, çoxçeşidli və rəqabət qabiliyyətli sənaye məhsulları ilə təmin etmək, milli adət-ənənələr nəzərə alınmaqla qabaqcıl təcrübə qazanmaq, yeni investisiya layihələrinin və müasir turizmin cəlb edilməsi nəzərə alınmaqla hesabın müasir tələblərin həyata keçirilməsini təmin etmək üçün birgə koordinasiya kimi təcili tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsinə şərait yaradır. SYX çərçivəsində Milli Turizm Təbliğat Bürolarının təşkil edilməsi və eyni zamanda fəaliyyətinin təmin edilməsi, Bakı şəhərinin turizm yerlərinə dair məlumatların bir daha işlənilməsi və turist xidmət paketlərinin son tələblərə uyğun bir şəkildə hazırlanması, Bakı şəhərində turizm infrastrukturunun yaradılması məqsədilə uyğun tədbirlərin həyata keçirilməsi, uyğun məbləğlər ilə xidmət göstərən mehmanxana və turizm zonalarının sayının daha da artırılması və həmçinin, eyni zamanda, inkişaf etdirilməsi, viza rəsmiləşdirilməsi və sərhəd-keçid proseslərinin biraz daha sadələşdirilməsi, sürətləndirilməsi, qabaqcıl turizm bölgələri ilə hava bağlantılarının yaradılması, ölkədə sanatoriya-kurort xidmətləri təqdim edən müəssisələrin və bunun üçün lazım olan imkanların olması nəzərə alınaraq, sağlamlıq turizminin inkişaf etdirilməsi məqsədilə uyğun şəraitin formalaşdırılması və eyni zamanda, bu xidmətlərə olan tələbin yenidən yaradılması, qış turizminin dəstəklənməsi, mədəni turizmin inkişaf etməsi üçün müvafiq marşrutlarının yaradılması, turizm sahəsinin inkişaf etməsinə xidmət göstərən təhsil müəssisələrinə və proqramlarına investisiya qoyuluşunun təmin edilməsi

istiqamətində bir sıra  tədbirlərin hazırlanması və həyata keçirilməsi kimi vacib məsələlər geniş şəkildə təyin olunmuşdur.

Tapşırılan məsələlər üzərində iş illərdir davam edir və onun nəticələri ölkənin turizm potensialına, bu sahədəki məşğulluq səviyyəsinə, Azərbaycanda turizmin artan marağına və digər əlaqəli sahələrin inkişafına əlamətdar təsir göstərir.

Azərbaycanda xaricilər üçün 2016-cı ildən etibarən (kommersiya və ya kommersiya məqsədləri üçün deyil) vergi tətbiq olunmayan sistem tətbiq olundu və 2017-ci ildən bu yana dövri Shopping Festivalı ölkəyə gəldi ki, bu da əcnəbilərə əlavə bir stimul yaradır və məmnuniyyəti stimullaşdırır.

Vaxtında və yaxşı planlaşdırılan tədbirlər nəticəsində ölkəmizə səfər edən turistlərin sayı xeyli artmışdır. Dünya İqtisadi Forumunun Səyahət və Turizm Rəqabətliliyi 2017 hesabatında AR 136 ölkə içində 71-ci, MDB məkanında isə 2-ci yerdə qərarlaşıb.

SYC ölkə Prezidentinin fərmanları ilə təsdiq edilmiş İnkişaf Konsepsiyasına, respublikanın müxtəlif bölgələri üçün sosial-iqtisadi inkişaf proqramlarına, sənayenin inkişaf proqramları ilə müəyyən edilmiş məqsəd və vəzifələrə uyğun olaraq hazırlanmışdır.

Bildiyiniz kimi, STX-nin prinsiplərindən biri də respublikamızda ağır sənayenin və maşınqayırmanın inkişafı kimi məsələləri nəzərdə saxlayan Strateji Yol Xəritəsidir ki, o varolan resurslar və imkanları diqqətə almaqla və birbaşa ölkəmizdə ağır və maşınqayırma sənayesində ən yeni tənzimləmə üsulları tətbiq olunmaqla və təşviq siyasəti aparmaqla qeyri-neft sektorunun monoton inkişafı vasitəsilə milli iqtisadiyyatın şaxələndirilməsinə, ağır və maşınqayırma səhasində əlavə dəyərin yüksəldilməsinə və məşğulluq səviyyəsinin artırılmasına, ətraf mühitin mühafizə olunmasına  və  bunun nəticəsində, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olmaqdan, ölkə əhalisinin rifah vəziyyətinin yaxşılaşdırılmasını və sağlam həyat tərzini təmin etməkdən ibarətdir. Ölkənin ağır və mexaniki sənayesinin (2016-2020-ci illər) mövcud aktivlərin səfərbər edilməsi, maliyyə dəstəyi, beynəlxalq əməkdaşlıq və əlaqələrin optimallaşdırılması və əsas

istiqamətləri rəhbər tutaraq bu hədəflərə çatmaq üçün bu sahədə rəqabətçi bir sektorun yaradılması SYX nın məqsədlərinə daxildir.

Qarşıya qoyulmuş hədəflərə çatmaqla ölkəmizdəki real ÜDM 1,560 milyon təşkil edir və 7.700 yeni iş yeri yaradılacaqdır.

SYX çərçivəsində ağır və maşınqayırma sənayesində məhsuldarlığ səviyyəsinin artırılması, hal-hazırki potensialın və aktivlərin mərkəzləşdirilmiş reyestrinin formalaşdırılması, regional tələbatın diqqətə alınması ilə dəyər zəncirlərində aktiv iştirakın təmin edilməsi və bazara çıxışın əvəzlənməsi üçün fəaliyyətə dəstəyin verilməsi, respublikada dağ-mədən sənayesinin inkişaf etdirilməsi, metallurgiya sahəsinin inkişaf etdirilməsi, operativ maliyyələşmə mənbələrinin mənimsənilməsi məqsədilə mexanizmlərinin təşviqi, təcrübənin yığılması və ötürülməsi kimi tədbirlərin təşkil edilməsi və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Vəziyyətin monitorinqi və qiymətləndirilməsi ağır və maşınqayırma sənayesinin inkişafını nəzərdə tutan 2017-ci ildə planlaşdırılan SYX tədbirlərinin icrası ilə əlaqədar həyata keçirilmişdir. Qiymətləndirməyə görə, bu sahədə planlaşdırılan işlərin səviyyəsi 68% təşkil etmişdir. 2017-ci il üçün SYX-nin ağır və maşınqayırma sənayesinin inkişafı ilə bağlı işlərinin 44% -i tamamlandı, 47% -i qismən tamamlandı, 9% -i isə yerinə yetirilmədi. Mövcud potensialın və aktivlərin optimallaşdırılması istiqamətində tam icraya 52%, qismən icrasına isə 48% nail olundu.

Rəqabət edən bölmələrin icra vəziyyəti: tam icra 36%, qismən icra 44%, yerinə yetirilməmiş 20%. Beynəlxalq səviyyədə maliyyə dəstəyi və əməkdaşlığın tam həyata keçirilmə səviyyəsi 45%, həyata keçirmə səviyyəsi 50%, planlaşdırılan tədbirlərin cəmi 5% -i yerinə yetirilmədi.

## 3.2 Strateji yol xəritələrinin istiqamətlərinə uyğun olaraq iqtisadiyyatın inkişafının prioritetləri

SYX-də diqqətləri çəkən başlıca hal strateji məqsəd və hədəflərə nail olmaq üçün aydın zaman çərçivəsinin müəyyən edilməsidir. Yəni, SYX qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrlərdən ibarətdir. Belə tərzdə yanaşma dayanıqlı tərəqqini hədəfləyən strateji sənədin uğurla icrası üçün olduqca önəmlidir. Ölkədaxili iqtisadiyyatların qlobal iqtisadi-ticari məkana inteqrasiya prosesinin artdığı bir dövrdə proqnozlaşdırıla bilməyən risklərin mövcud olması belə bir yanaşmanı vacib edir. Bu səbəbdən də, SYX-də qeyd olunan əsas əməliyyatların icra olunması üzrə tədbirlər planının 2020-ci ilə qədər olan dövrü hazırki gerçəkliklər və qlobal çağırışlar əsas götürülməklə yararlı icra mexanizminin yaradılmasını biruzə verir. Bu sənəddə 2025-ci ilə qədər olan zaman üçün uzunmüddətli baxış və 2025-ci ildən növbəti illər üçün isə hədəf baxış müəyyən olunmuşdur ki, bu illərdə hansı tədbirlər paketinin müəyyən edilməsi AR iqtisadiyyatının yaxın dövrlərdə yaradacağı tərəqqi göstəricilərindən, qlobal iqtisadi-maliyyə mühitində reallaşan yeniliklərdən asılı olacaqdır ( İmanquliyev. B.N, 2018: s.3).

SYX-də 2025-ci ilədək təyin olunan uzunmüddətli baxış dayanıqlı tərəqqi yoluna girən dövlət iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin daha da qüvvətləndirilməsini hədəfləmişdir. Bu hədəfə çatmaq ölkə daxilində azad rəqabət şəraitinin yaradılması və iqtisadiyyat sahəsində özəl sahənin payının yüksəldilməsi, həmçinin, investisiya cəlbediciliyinin artırılması yönündən xüsusi önəmlidir. Azərbaycan son illərədək makroiqtisadi şəraitə görə dünyanın əsas maliyyə institutları tərəfindən ən sabit dölvətlərdən biri olaraq dəyərləndirilmişdir. Ancaq, neftin qiymətində kəskin azalmanın baş verməsi ölkəmizin makroiqtisadi sabitliyi üçün təhlükəlidir. Beləliklə, ortamüddətli hədəfdə təkrar makroiqtisadi sabitliyi əldə etmək əsas öhdəliklərin reallaşdırılmasının əsas şərtlərindən biridir.

Ölkədaxili iqtisadiyyat perspektivi üzrə SYX-də dörd əsas strateji hədəf: fiskal dayanıqlılığın möhkəmləndirilməsi və davamlı monetar siyasətin

yürdülməsi, özəlləşdirmə və dövlət mülkiyyətindəki şirkətlərlə əlaqədar ciddi islahatların keçiirlməsi, insan kapitalının tərəqqi etdirilməsi, səmərəli biznes mühitinin formalaşdırılması nəzərdə tutulmuşdur.

**Strateji hədəf 1.Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi**

2014-cü ildən sonra neft bazarında neftin qiymətində nəzərəçarpacaq dərəcədə enmə müşahidə edilməyə başladı. Həmin dövrün sonunda Brent markalı neftin qiyməti dünya bazarlarında ilin əvvəli ilə müqayisə etdikdə 44 faiz azalmış və 62 ABŞ dolları olmuşdur. Bu, Azərbaycanın əməkdaş olduğu ölkələrdə neft qiymətləriylə bərabər iqtisadi artımın enməsi, milli valyutanın devalivasiyası ümumilikdə iqtisadiyyata mənfi təsir göstərmişdir. Baş verən hadisələrin ölkənin milli iqtisadiyyatına mənfi təsirlərini minimuma endirmək və xarici və daxili bazarlarda balansı gözləməklə makroiqtisadi sabitliyi saxlamaq Azərbaycan dövlətinin əsas məqsəd və prioriteti hesab edilmişdir. Bu istiqamətdə Azərbaycan Respublikasının Prezidentinin başçılığı ilə həyata keçirilən institusional islahatların maraq dairəsi getdikcə artırılmışdır, həmçinin iqtisadiyyatın dövlət tənzimləməsi yönündə gömrük və vergi fəaliyyətinin inkişafında lazımi işlər görülmüşdür. Həyata keçirilən islahatların təsiri qısa zaman ərzində sahibkarlıq və investisiya fəaliyyətində aktiv müşahidə olunan və bu islahatların çoyönlü səmərəsinin uzumüddətli dövrdə daha çox yüksələcəyi ehtimal olunur ( Şəkərəliyev A., Şəkərəliyev Q., Əhmədov.Ə., 2018).

Ucuz neft dövrünün yaranması ölkəmizin iqtisadiyyatı qarşısında vacib strategiyalar formalaşdırmış oldu. Belə ki, ucuz neft dövrünün ölkənin milli iqtisadiyyatına ən çox təsir kanalları qiymətli kağızlar sektoru və ya bank-maliyyə sektoru (bura maliyyə sabitliyi aid edilir), daxili balans (bura dövlətin maliyyəsi, dövlətin malik olduğu valyuta ehtiyatları aid edilir) və xarici balans (bura tədiyə balansı aid olunur) olmuşdur. Ucuz neft qiymətlərindən ən çox təsirlənmiş iqtisadi sektor dövlətin xarici balansı olmuşdur.

Xarici sahələr üzrə qurulmuş çərçivənin mükəmməlləşdirilməsi, xarici balansın yeni dövrün (ucuz neft dövrü) gerçəklikləri əsasında bərpa edilməsi, həmçinin, daxili iqtisadi balansa təsir edəcək mənfi halların azaldılması məqsədilə ölkənin milli valyutası 2015-ci il çərçivəsində iki dəfə düzəliş edilmiş, 2015-ci ilin sonlarında 1 dollarının manata olan məzənnəsi 0,78-dən 1,55 manatadək yüksəlmişdir. Ölkədaxili valyutanın azalması tədiyə balansının yeni həddə tarazlanmasına müəyyən qədər təsiri olmuşdur. Habelə, xarici ticarət balansında qeyri-neft idxalı ümumilikdə 6 % azalmışdır. Ancaq məzənnənin düzəlişinə baxmayaraq, respublikada genişmiqyaslı müasir neft proyektlərinin həyata keçirilməsi nəticəsində neft sahəsinin idxalı 1,8 dəfə çoxalmışdır. Ümumi olaraq, qeyri-neft sənayesində müşahidə olunan CƏB kəsiri azalaraq 1 milyard dollara qədər enmişdir.

Ucuz neft dövrünün yaratdığı yeni konyunktur vəziyyət dövlətin maliyyə sisteminə də öz təsirini xeyli etmişdir. Dövlət maliyyə sisteminin başlıca həlqəsi ARDNF- nun əldə etdiyi gəlirlər 2015-ci ilin sonunda azalaraq 4,9 milyard manata çatmışdır. Digər tərəfdən ölkənin milli valyutasının korreksiya olması xarici valyuta ehtiyatına dövlət büdcəsinə transfertlərin miqdarında qənaət imkanı yaratmışdır.

Dövlətimizin Mərkəzi Bankının məlumatlarına əsaslanaraq demək olar ki, ölkəmiz üzrə ümumilikdə valyuta ehtiyatları 24,4 faiz azalaraq 2015-ci ildə 38,9 milyard dollar çatmışdır. Həm də, ARDNF- nin ehtiyatları 2015-ci ildə 9,1 faiz azalaraq ilin axırına 33,6 milyard dollar olmuşdur. Yeni dövrün reallıqları əsas tutularaq, Azərbaycan hökuməti ölkə maliyyəsinin möhkəmliyini təmin etmək üçün fiskal konsolidasiya tədbirlərinin görülməsinə qərar vermişdir. Beləliklə, 2016-cı il üçün dövlət xəzinədarlığında planlaşdırılan kapital xərclər nəzərəçarpacaq dərəcədə azaldılmışdır. Fiskal konsolidasiya əslində müsbət meyil olsa da, ölkənin yatırdığı investisiyalardan yüksək səviyyədə asılılığa aid olan iqtisadi aktivliyin aşağı düşməsi bu anlamda qaçılmazdır. Ancaq ortamüddətli dövr

ərzində iqtisadi tərəqqinin  dövlət tələbindən özəl tələbə keçidi aspektində fiskal konsolidasiyanın başqa bir iqtisadi siyasət alternativi hələki mövcud deyil.

Dövlət maliyyəsinə olan yeni dövrün yaratdığı neqativ təsir kanallarından digəri məzənnə korreksiyası sayəsində formalaşan xarici borc öhdəlikləri üzrə fiskal yükün çoxalmasıdır.

Neftin qiymətinin azalmasının neqativ təsirləri özəl tələbin yəni istehlak və investisiyanın maliyyələşdirilməsi kanallarından önəmli sayılan bank sahəsində də özünü biruzə vermişdir . Məcmu tələbin məhdudlaşması, və məzənnənin korreksiyası ölkədə fəaliyyət göstərən bankların gəlir əldə etdiyi fəaliyyət dairəsini yetərincə məhdudlaşdırmışdır. İqtisadiyyatda yaranan risklər bankları dərin şəkildə mühafizəkar kredit siyasətinə keçməyə məcbur etdi ki, bu da nəticədə aşağı gəlirlilik-izafi likvidlik (bəzənsə zərər) sonlanır.

Ucuz neft qiymətlərinin yaratdığı mənfi halların daxili balansa olan təsir kanalları vasitəsilə həyata keçməsi iqtisadi artımın surətində də özünü göstərmişdir. Əldə olunan statistik məlumatlara görə, 2015-ci il üzrə ÜDM-in real artım faizi 1,1%, o cümlədən ölkənin qeyri-neft sahəsində 1,1%, neft sahəsində isə artım faizi 1,2% artım  olmuşdur. ÜDM 2016- cı il yanvar-avqust ayları üçün həqiqi ifadədə 3,3 % aşağı düşmüş, qeyri-neft sahəsində 5,7 %, neft sahəsində isə 2,6 % yüksəlmişdir.

**Strateji hədəf 2. Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi**

Dövlət başçımızın Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə olunmasının səmərəliliyinin çoxaldılması ilə əlaqəli bir sıra tədbirlər haqqında 2016-cı il 19 iyul tarixli Sərəncamı və Paylarının nəzarət zərfi dövlətə aid hüquqi şəxslərin fəaliyyətində əlverişliliyin artırılması ilə əlaqəli əlavə tədbirlər haqqında 2019-cu il 4 iyun da verilən fərmanı ölkə daxilində  özəlləşdirmənin aparılmasının effektivliyini bərpa etmək üçün hüquqi bazanı daha da möhkəmləndirmişdir ( http://www.e-qanun.az/framework/42596).

Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə olunmasının səmərəliliyinin çoxaldılması ilə əlaqədar bir sıra tədbirlər haqqında 2016-cı il 19 iyulda verilən Sərəncamında dövlət mülkünün idarə olunmasında əlverişliliyin çoxaldılması, dövlət mülkünün qorunub saxlanılması və istifadəsi üzərində dövlət nəzarətinin inkişaf etdirilməsi ilə əlaqədar iri dövlət şirkətlərinə aid vahid informasiya bazasının yaradılması yönündə artıq sürətli işlər həyata keçirilməsi istiqamətləndirilmişdir. Bu platforma xüsusi bir bölmə kimi e-xidmətlər portalında (e-emdk.gov.az) yerləşdirilib. 20-ə yaxın iri dövlət şirkətdən ibarət bu platformada kadr uçotu üzrə informasiyalar, maliyyə və mühasibat göstəriciləri, həmçinin daşınmaz əmlaka aid hesabat formaları vardır. İnformasiya bazasına iri dövlət şirkətləri tərəfindən internet üzərindən rejimdə real informasiyaları daxil etməyə şərait yaradan veb platforma meydana gəlmişdir.

**Sxem 1: Özəlləşdirmədən sonra istismar və maliyyə sahələrində irəliləyişlər, %-lə**




**Mənbə:**https://azertag.az/storee/filiees/unt%%itled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf

AR-da dövlət əmlakının özəlləşdirilməsi ilə əlaqədar olan proqramlar ölkəmizdə iqtisadi imkanların artırılmasına, azad rəqabət şəraitinin yaradılmasına, bir çox dövlət müəssisələrinin fəaliyyətinin təkrar yaradılmasına, müasir avadanlıq və texnologiyaların, o cümlədən yeni idarəetmə üsullarının tətbiq edilməsinə xüsusi şərait yaratmışdır. Dünyanın İEÖ-nin təcrübəsindən faydalanaraq, AR dövlət əmlakının liberallaşdırılması və özəl sahənin tərəqqi etdirilməsi sahəsində təşviqedici fəaliyyətini sürdürməkdədir.

AR-da qeyri-dövlət sektorunun iştirakı proqramlarının məqsədi dövlətə yerli və xarici investorları aktiv olaraq cəlb etməklə investisiya axınını sürətləndirməkdir. Bu cür yanaşma AR-da kapital bazarlarının tərəqqi etdirilməsinə maraq göstərən investorların, həmçinin öz biznesini tərəqqi etdirmək marağında olan strateji alıcıların cəlb olunması üçün həyata keçirilən tədbirlərə stimel verir. Əlverişliliyin artması sahəsində investorlar, misal üçün, dövlət investisiya və pensiya fondları, ianə və özəl sektor investorları bu nöqteyi-nəzərdən diqqət mərkəzində saxlanılmaqdır.

İanə fondları sferasında Koronavirusla Mübarizəyə Dəstək Fondu – dövlət başçımızın 2020-ci il 19 mart tarixli Sərəncamı ilə AR-da koronavirus infeksiyasının geniş şəkildə yayılmasının qarşısını almaqdan və onunla mübarizə aparmaq istiqamətində görülən tədbirlərə maliyyə dəstəyi göstərmək üçün ərsəyə gətirilmişdir.

İnsan kapitalının tərəqqi etdirilməsi strateji hədəfi yönümündə ən əsas prioritet sahə seçərək «qara qızılı» məhz insan kapitalına yönəldərək gələcək milli inkişafa əsaslı zəmin yaradır. Bugün dünyada ən dəyərli kapital hesab edilən insan kapitalı uğrunda və əlbəttə ki, keyfiyyətli insan kapitalı uğrunda rəqabət dərin xarakter alıb.

Azərbaycanda əmək məhsuldarlığının artması və biliyin iqtisadi tərəqqidə rolunun çoxalması, insan kapitalının tərəqqisində fasiləsizliyin təmin olunması ilə əlaqədar tədbirlər xüsusilə dəstəklənəcəkdir. Bu, 2 səviyyədə təmin oluncaqdır:

1. İnsan kapitalının inkişafı və formalaşması üçün təhsilin hər bir pilləsində

keyfiyyətin artırılması;

2. Əmək məhsuldarlığının artması üçün R&D sahəsinə investisiya qoyuluşunun, insan kapitalının davamlı tərəqqisinin stimullaşdırılması

Son illərdə inkişaf etmiş ölkələrdə insan inkişafı üçün xərclər dəfələrlə artmış, əmək ehtiyatlarının ixtisaslaşması yaxşılaşdırılmışdır. Nəticədə əmək haqqının verilməsində ölkələr arasında fikir ayrılıqları da artdı. İEÖ-də əmək haqqı İEOÖ-ə nisbətən daha yüksəkdir. Bu fərq əmək və iqtisadiyyatın təklif və tələbindən irəli gəlir. Müasir dövrdə kənd təsərrüfatında və ticarətdə əmək haqqı istehsal sənayesi və rabitə sənayesindəki əmək haqqından qat-qat aşağıdır. Bunun səbəbi, istehsal sənayesi və rabitə sənayesi yüksək elm tələb edən və daha yüksək səviyyədə bilik tələb edir. Nəticə etibarilə əsas məsələ təkcə iş yerlərinin sayı və işçilərin sayı deyil, həm də keyfiyyətli əmək ehtiyatlarının olmasıdır. Yüksək keyfiyyətli əmək ehtiyatları olan ölkələrdə də inkişaf etmiş bir sahibkarlar sinfi mövcuddur. Hər ikisi savadlı işçi və işçilərinin dəyərini bilən sahibkar olduqda böyümə öz-özünə baş verir.

**Əlverişli biznes mühitinin inkişaf etdirilməsi hədəfi.** Ölkəmizdə əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsində ən vacib vəzifələrdən biri iqtisadiyyatın istehsal sahələrinin yenidən qurulmasına və texniki yaxşılaşdırılmasına sərmayə və investisiyaların cəlb edilməsidir. Vurğulamaq lazımdır ki, bank və ticarətdə mənfəət həddi istehsal sektorunda, o cümlədən istehlak mallarının istehsalında olanlardan daha yüksəkdir. Bu, özəl sahibkarların sənaye, tikinti, kənd təsərrüfatı və nəqliyyat kimi əsas sahələrə investisiya qoymaqda maraqlı olmadıqlarıdır. Bu, öz növbəsində, mütərəqqi sahələrdə struktur dəyişikliklərini və texnoloji inkişafları ləngidir və bu sahələrdə "investisiya aclığı" yaradır. Buna görə dövlət investisiya siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində əmək bazarı son illərdə təkcə müxtəlif sahələrdən azad olunan işçi qüvvəsinin sayını deyil, həm də əmək qabiliyyətli gənclərin sayının artmasını da nəzərə almalıdır. Əmək bazarının formalaşmasında bu amilin nəzərə alınmaması işsiz əmək qabiliyyətli əhalinin sayını daha da artıra və sosial gərginliyi artıra bilər.

Əhalinin əlverişli məşğulluğunun təmin olunmasında miqrasiya edən ölkə əhalisinin hərəkətinin tənzimlənməsi, keçmiş ittifaqın fərqli bölgələrdən ölkəmizə səfər edən əmək qabiliyyətli ölkə əhalisinin doğru uçota alınıb işlə təmin olunması, məşğulluq mərkəzində iqtisadi baxımdan aktiv əhali üçün özünü idarə edən bölgələr üzrə ümumi proqramların tərtib edilməsi və tətbiqinin də vacib əhəmiyyət daşıyır ( Məmmədova, Y. 2019: s.3).

Əmək bazarının çevikliyinə sərt məhdudiyyətlər biznesə mənfi təsir edir. İşçi qüvvəsinin həcmini iş ehtiyaclarına uyğunlaşdıra bilməyən firma rəqabət qabiliyyətini itirə bilər. Əmək xərcləri gəlirlə müqayisədə o qədər yüksək ola bilər ki, şirkət bu xərcləri azalda bilmirsə iflas edə bilər.

Ümumiyyətlə, sənədin təhlili və onun icrasının təhlili müəyyən dərəcədə hədəflərimizə çatmaq üçün verilən tapşırıqların daxili və beynəlxalq proseslər kontekstində məmnuniyyətlə yerinə yetirildiyini söyləməyə imkan verir. Görülən işlər milli iqtisadiyyatın inkişafına mane olan problemləri aradan qaldıracaq və SYX tərəfindən təyin olunan bütün sahələrdə ölkə iqtisadiyyatında dayanıqlı və dayanıqlı inkişaf üçün zəmin yaradacaq, bu da iqtisadi inkişafa və əhalinin rifahına hər mərhələdə töhfə verəcəkdir.

Qeyd etmək lazımdır ki, Strateji Yol Xəritəsi 2020-ci ilədək milli iqtisadiyyatın inkişafına xarici və mənfi təsirləri azaltmaqla, beynəlxalq inteqrasiya proseslərindən bəhrələnmək, rəqabət qabiliyyətini artırmaqla ölkəmizdə inkişaf yolunu yenidən qurmağı hədəfləyir. Milli iqtisadiyyat və valyutanı artırmaq, asılılığını azaltmaq üçün vacib bir vəzifə kimi qeyd edildi və 2025-ci ilə qədər ölkəmizdə davamlı inkişafda uğurlu nəticələr əldə etmək üçün iş, sahibkarlıq və innovasiya da daxil olmaqla makroiqtisadi mühitin yaxşılaşdırılmasının vacibliyi vurğulandı. Bu vəzifələri uğurla yerinə yetirmək üçün ölkəmizdə maliyyə sektorunun dayanıqlığını təmin etmək üçün səmərəli maliyyə və cari pul idarəçiliyini inkişaf etdirmək lazımdır.

**Cədvəl 10: İqtisadi vəziyyətin yekun qiymətləndirilməsi: GZİT təhlili**

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| ● strateji əhəmiyyətli coğrafi mövqe<br>● İctimai və siyasi sabitlik<br>● Sosial diqqət hər zaman dövlətin diqqətindədir<br>● Əhalinin dövlət xidmətləri ilə təmin edilməsində əlverişliliyin və şəffaflığın çoxalması (ASAN xidmət mərkəzləri)<br>● İxracın həvəsləndirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə və səmərəli investisiya şəraitinin formalaşdırılmasına dövlət dəstəyi<br>● qlobal enerji və nəqliyyat dəhlizi layihələrində iştirak<br>● enerji və qida təhlükəsizliyi baxımından qənaətbəxş özünü təminetmə<br>● Dövlət borcunun ödənilməsi, işsizlik və inflyasiya | ● Makroiqtisadi siyasət protstiklik prosedurdur<br>● İqtisadiyyatın və ixracatın zəif şaxələndirilməsi<br>● Dövlət iqtisadiyyatının neft və qaz gəlirlərindən asılılığı<br>● Dövlət idarələrində və qeyri-dövlət sektorunda korporativ idarəetmənin qeyri-kafi olması<br>● Əsasən neft və qaz sektoruna birbaşa xarici sərmayə<br>● Xarici şok udma qabiliyyəti zəifdir<br>● İnvestisiyalarda dövlətin yüksək payı, fərdi sahibkarlığın zəif dinamikası<br>● ixrac əsasən xamdır<br>● istehsal sektorunda idxaldan asılılıq<br>● Qeyri-rəsmi məşğulluq səviyyəsi<br>● İnsan kapitalının tərəqqisi ilə bağlı zəif qlobal mövqe<br>● Xidmət ixracının zəif təşviqi |
| **İmkanlar** | **Təhlükələr** |
| ● Qlobal dəyər zəncirinə inteqrasiya, iqtisadiyyatın qollara ayrılması<br>● prioritet sahələrdə tərəqqi imkanlarının mövcudluğu<br>● Qeyri-rezidentlər üçün əlverişli biznes mühiti yaratmaq<br>● Yerli və xarici sahibkarların aşağı gəlirli müəssisələrin özəlləşdirilməsində iştirakı üçün münbit şərait yaratmaqla özəl investisiyaların həvəsləndirilməsi.<br>● Məşğulluqda özəl sahəsinin rolunun artması | ● Bölgədəki geosiyasi gərginliyin artması<br>● Artan maliyyə yükü<br>● İstehsal deyil, infrastruktur layihələrinə sərmayə cəlb etmək<br>● təbii ehtiyatların tükənməsi, yeni böyümə sahələri üçün aşağı kompensasiya<br>● Aşağı orta gəlir və ya daha aşağı gəlir qrupu |

**Mənbə:** Müəllif tərəfindən tərtib olunub.

GZIT analizinin nəticələri iqtisadi artımın əsas aparıcılarını yeni iqtisadi yanaşmaya çevirmək üçün əhəmiyyətli üstünlüklərin olduğunu göstərir.

Xarici ölkələrin təcrübəsindən məlum olur ki, ölkədə məhsuldarlığı və iqtisadi artımı təmin etməyin əsas yolu əmək ehtiyatlarının keyfiyyətini artırmaqdır. Təcrübə aydın göstərdi ki, işçilər keyfiyyətli və kəmiyyət rifahı ilə təmin olunarsa, son məhsul xətti artacaqdır. Yaxud işçilər daha savadlı və ya təcrübəlidirsə, istehsal etdikləri son məhsul artacaqdır. İEÖ-də əmək haqqı yüksəkdir, çünki bu ölkələr uzun illər ərzində kifayət qədər kapital ehtiyatı toplaya və güclü əmək ehtiyatları yarada biliblər.

Beləliklə, əmək bazarına sərmayə qoyulması onlarda məşğulluq probleminin həllinə və hədiyyə tələbatının artmasına kömək edəcəkdir. Bu, işçi qüvvəsinə tələbatın artması və nəticədə işçi qüvvəsinə tələbatın artması ilə nəticələnəcəkdir.

Vurğulamaq lazımdır ki, SYX 2020-ci ilədək milli iqtisadiyyatın tərəqqisinə xarici və mənfi təsirləri azaltmaqla, beynəlxalq inteqrasiya proseslərindən bəhrələnmək, rəqabət qabiliyyətini artırmaqla ölkəmizdə inkişaf yolunu yenidən qurmağı hədəfləyir. Milli iqtisadiyyat və valyutanı artırmaq, asılılığını azaltmaq üçün vacib bir vəzifə kimi qeyd edildi və 2025-ci ilə qədər ölkəmizdə davamlı inkişafda uğurlu nəticələr əldə etmək üçün iş, sahibkarlıq və innovasiya da daxil olmaqla makroiqtisadi mühitin yaxşılaşdırılmasının vacibliyi vurğulandı. Bu vəzifələri müvəffəqiyyətlə icra etmək üçün ölkəmizdə maliyyə sektorunun dayanıqlığını təmin etmək üçün əlverişli maliyyə və cari pul idarəçiliyini inkişaf etdirmək lazımdır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

1. Milli iqtisadiyyat və onun əsas sektorları üçün FSİ inkişafının məqsədi iqtisadiyyatın müxtəlif sahələrində və bütövlükdə ölkə iqtisadiyyatında rəqabət qabiliyyətinin artırılması, davamlı iqtisadi inkişafa əsaslanan əhalinin rifah halının yaxşılaşdırılmasıdır və Azərbaycanda, azad rəqabət mühiti yaratmaq, resursların cəlb edilməsi, respublikanın dünya iqtisadiyyatındakı mövqeyinin möhkəmləndirilməsi və s. kimi belə vacib nailiyyətləri təmin etməkdir.

2. Strateji yol xəritələri iqtisadi böyüməni artırmaq üçün bir növ "yol xəritəsi" olaraq inkişaf etdirilir və aralıq statistikaların müqayisəsini və fəaliyyətlərin düzəldilməsinə imkan yaradır.

3. Strateji yol xəritələri biznes strategiyası ilə bazar və texnoloji həllər arasında birləşdirən əlaqə rolunu oynayır.

4. İqtisadi inkişafdakı boşluqları strateji yol xəritələri ilə müəyyənləşdirmək: bu boşluqları vaxtında həll etməyə kömək edir və gələcək problemlərin qarşısını alır

5. Dövlət idarəçiliyində strategiya və konsepsiyalara ölkənin institusional infrastrukturunun formalaşdırılması üçün qarşıya qoyulan məqsədlərə nail olmağa kömək edən mühüm rol verilir.

6. Ölkə Prezidentinin qeyd edilən sərəncamına əsasən, ölkə iqtisadiyyatı və onun on bir sektoru üzrə ayrı-ayrılıqda on iki SYX hazırlanıb.

7. Ölkə iqtisadiyyatının perspektivləri ilə bağlı SYX qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrlər üzrə, 2020-ci ilə qədərki dövrü əhatələyən inkişaf strategiyası, eləcə də ona uyğun işlənib hazırlanmış tədbirlər planı və həmçinin 2025-ci ilədək olan dövrü əhatə edən “uzunmüddətli baxış” və həmçinin 2025-ci ildən sonra gələn illər üzrə “hədəf baxış”dan ibarətdir. SYX-də də göstərilir ki, 2020-yə qədər planlaşdırılan işlərin həyata keçirilməsi üçün 27 mlrd AZN həcmində investisiya məqsədilə maliyyə resurslarının yatırılması proqnozlaşdırılırmışdır. Vurğulandığı kimi, qeyd edlən strareji əhəmiyyətli sənədə söykənərək milli iqtisadiyyatın perspektiv tərəqqisi çərçivəsində dörd mühüm

strateji hədəf təyin edilmişdir.

8. Azərbaycan iqtisadiyyatının perspektivləri nöqteyi-nəzərdən 4 başlıca strateji məqsədə nail olunması nəzərdə tutulmuşdur. Sözügedən bu məqsədlərin və on bir sektorla bağlı strateji yol xəritələrinin reallaşdırılmasından sonra milli iqtisadiyyatın real və maliyyə sektorlarının tarazlı vəziyyətə gətirilməsi vasitəsi ilə dayanıqlı və sabit iqtisadi tərəqqinin təmin olunması başlıca hədəf qismində çıxış edir. Biznes iqliminin daha da əlverişli səviyyəyə çatıdırılmasına yönəlmiş işlərin görülməsi baxımından dövlətin biznesi sahəsinin tənzimləməsi alətlərinin və mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi, vergi-gömrük idarəçiliyi sferasında keyfiyyətinin artırılması, bazara daxil oluması istiqamətində mövcud baryerlərin və maneələrin götürülməsi yaxun onların mümükn qədər minimuma endirilməsi, bununla bərabər, məhdudiyyətsiz və sərbəst rəqabət şəraitinin təmin olunması prioritet istiqamətlər qismində dəyərləndirilir. Eyni zamanda, dövlətin sərəncamında olan təsərrüfat subyektlərin kommersiya yönümlü fəaliyyətinin (maliyyə xidmətləri, nəqliyyat, sənaye, rabitə və s.) məhdudlaşdırılması vasitəsi ilə özəl təşəbbüskarlıq üçün mövcud şəraitin miqyasının daha da genişləndirilməsi sənəddə başlıca məqsədlərdən biri qismində qəbul olunur.

9. Milli iqtisadiyyat və onun əsas sahələri üçün FSİ inkişafının məqsədi iqtisadiyyatın müxtəlif sektorlarında və bütövlükdə ölkə iqtisadiyyatında rəqabət qabiliyyətinin artırılması, davamlı iqtisadi tərəqqiyə əsaslanan əhalinin rifah halının yaxşılaşdırılmasıdır və Azərbaycanda, azad rəqabət mühiti yaratmaq, resursların cəlb edilməsi, respublikanın dünya iqtisadiyyatındakı mövqeyinin möhkəmləndirilməsi və s. kimi belə vacib nailiyyətləri təmin etməkdir.

10. SYX iqtisadi böyüməni artırmaq üçün bir növ "yol xəritəsi" olaraq inkişaf etdirilir və aralıq statistikaların müqayisəsini və fəaliyyətlərin düzəldilməsinə imkan yaradır.

11. SYX biznes strategiyası ilə bazar və texnoloji həllər arasında birləşdirən əlaqə rolunu oynayır.

12. İqtisadi inkişafdakı boşluqları SYX ilə müəyyənləşdirmək: bu boşluqları

vaxtında həll etməyə kömək edir və gələcək problemlərin qarşısını alır.

13. Dövlət idarəçiliyində strategiya və konsepsiyalara ölkənin institusional infrastrukturunun formalaşdırılması üçün qarşıya qoyulan məqsədlərə çatmağa kömək edən mühüm rol verilir.

**Təkliflər:**

- Ölkə iqtisadiyyatının müxtəlif sahələrində özəlləşdirmə və yenidən qurulma proseslərini sürətləndirmək;
- yüksək tələbatlı məhsul istehsal edən sənaye müəssisələrinin yenidən qurulması və uzunmüddətli əsas kapitalın yenilənməsi üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi mexanizminin təkmilləşdirilməsi;
- müasir texniki vasitələrlə silahlanmış sənaye müəssisələrində istehsalın təşkili və məhsulların keyfiyyətinə dair beynəlxalq standartların tətbiqinə tam keçidi təmin etmək;
- Respublikada əlverişli biznes mühitinin təmin edilməsi və istehsal olunan məhsulların istehlak xüsusiyyətlərinin yaxşılaşdırılması məqsədilə Rəqabət Məcəlləsinin sürətlə qəbul edilməsi;
- ölkənin iqtisadi inkişafında mühüm rol oynaya biləcək institusional islahatların həyata keçirilməsi üçün müvafiq tədbirlər planının hazırlanması və həyata keçirilməsi;
- daxili və xarici maliyyə mənbələri hesabına investisiya proseslərini sürətləndirmək üçün investisiyaların təşviqində dövlətin rolunun artırılması;
- Yüksək texnoloji sahələrin yaradılması və inkişafı üçün fəaliyyət göstərən elmi tədqiqat institutları və mərkəzlərinin maddi-texniki bazasının artırılması.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə SYX İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli Sərəncamı
2. Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə olunmasının səmərəliliyinin artırılması ilə əlaqədar bəzi tədbirlər haqqında AR Prezidentinin Fərmanı Bakı şəhəri, 19 iyul 2016-cı il № 1003
3. Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması AR Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamı
4. Paylarının nəzarət zərfi dövlətə aid hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə əlaqədar bir sıra normativ hüquqi aktların təsdiq olunması haqqında AR Nazirlər Kabinetinin qərarı Bakı şəhəri, 4 iyun 2019-cu il № 257
5. Abasov C.N., SYX-nin illik hesabatı , //525-ci qəzet.-2019.- 4 fevral.- s.3.
6. Abbasov.İ., Əliyev T., (2018) Qeyri-neft sənayesinin iqtisadiyyatı" (monoqrafiya) Bakı Biznes Universiteti"- 315 səh
7. Abdullayeva N.A., Qeyri-neft sahəsində gerçəkləşdirən ən böyük layihə : SOCAR karbamid" adlı zavodun istehsala start verməsi azot gübrəsi idxalını ortadan götürəcək, istehsalın 70 faizi ixrac ediləcəkdir //Palitra -2019.- 18 yanvar.s.6-9
8. Baxşəliyev, R.A., SYX Milli inkişafa yeni təkan verir //Azərbaycan - 2018.- 25 iyul.- s.1-3.
9. Bayramov A.M., Ölkəmizdə qeyri-neft sahəsinin inkişaf potensialı artırır, yeni iş yerlərinin təşkil edilməsinə müsbət təsir edir //Xalq qəzeti, .-2018.- 26 noyabr, s.3-4
10. Cahangirov P. H., (2018) Müasir vəziyyətdə qeyri-neft sektorunun ixrac imkanının formalaşdırılması səbəbləri, (monoqrafiya) Azərb. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İn-tu. Bakı, - 198 səh

11. Cavadov .N.A ., SYX keyfiyyətcə yeni inkişafin strategiyasıdır //Azərbaycan .-2017.-23 dekabr.- s.5-9

12. Cavadov .N.A., (2017), SYX gerçəkləşməsində ixrac potensialının təhlili və inkişaf perspektivləri, //İqtisadiyyat.-2017.- 4-10 may.- s.9.

13. Əhmədov N. V., Əyyubov M. R., (2019) Azərbaycanın neft sektoru-2010-2018" : bülleten / analitik icmal Bakı:"Bilik və Elm", - 156 səh

14. Əliyev V. N., (2015) Azərbaycanın iqtisadiyyatının tənzimlənməsi problemi (monoqrafiya) Bakı, "Azərb. Dövlət Neft Akademiyası"-211 səh

15. Fərzəliyev M. P., (2017) Azərbaycanda qeyri-neft sahəsinin ixrac potensialının inkişaf problemləri, (monoqrafiya) Bakı "Azərb. Dövlət İqtisad Universiteti, İqtisadi Araşdırmalar Elmi-tədqiqat İn-tu", - 210 səh

16. Hacıyev, F.Ş., (2017), Azərbaycanda SYX-nin gerçəkləşməsində ixrac potensialının təhlili və inkişaf perspektivləri, //İqtisadiyyat, s.9.

17. İmamverdiyeva. S., İxracın diversifikasiyası sahəsində İdxal-İxrac Bank"larının (Eximbank) rolu. Azərbaycanın Vergi Jurnalı.3(117)/ 2014, s.177-190

18. İmanquliyev B.N., SYX iqtisadi uğurlarımızın təməli kimi //Azərbaycan - 2018.- 16 avqust.- S.3.

19. Məmmədov İ. N. , Abbasov A. F.. (2016) Qeyri-neft sahəsinin inkişaf istiqamətləri (monoqrafiya) Bakı: Apastroff, - 248 səh

20. Mikayılova N. Y., Bağırov M. M., (2018), Azərbaycan iqtisadiyyatı, Bakı "Müəllim", s.311

21. Mustafayev S.A., Qeyri-neft sahəsində ixrac potensialı möhkəmlənir //Mövqe2018.- 27 dekabr.

22. Mikayılova N. Y., Bağırov M. M., (2018), Azərbaycan iqtisadiyyatı Bakı: Müəllim, 2018. s.311

23. Nağıyeva V.Y., (2018) Alternativ ixracın potensialından istifadənin təşkilati-idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətləri (qeyri-neft materialları əsasında), (monoqrafiya) AMEA, İqtisadiyyat İnsitutu. Bakı: -195 səh

24. Qurbanzadə A.A., (2016) Azərbaycanın ixrac potensialının inkişaf problemləri (qeyri-neft sektorunun materialları əsasında), (monoqrafiya) Bakı, Azərb. Dövlət İqtisad Universiteti, - 247 səh

25. Sənaye klasterlərinin yaradılma metodologiyası. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu.Bakı-2017.

26. Süleymanov E.N., Zeynalov A.M., (2018), Azərbaycan Respublikasinda qeyri-neft sahəsinə əsasən idxal-ixracın mövcud durumunun təhlili, qiymətləndirilməsi" (monoqrafiya) Bakı: "Azərnəşr" - 278 səh

27. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A., (2018) Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər, Bakı, "Elm", s.532

## Türk dilində

1. Aksoy Ş., (2018), İktisâdi Düşünce ve Politik İktisadın Evrimi, İstanbul: Remzi Kitapevi.356 say

2. Bedirhanoğlu P., (2017). Ulusal ekonominin dinamik ve sürdürülebilir kalkınmasını sağlamak Çağdaş Yerel Yönetimler, 7(1),3-13 say

3. Demir Ö., (2016). Kurumcu İktisat. İstanbul: Çizgi Kitabevi.- 658 ss

## İngilis dilində

1. Dugger W., (2017). Ensuring dynamic and sustainable development of the national economy Journal of Economic Issues 27, pp.1549-1575

2. Hall P., (2015), The Political Power of Economic Ideas. Princeton, NJ: Princeton University Press,-456 pp

## İnternet resursları

**1.** http://unec.edu.az/milli-iqtisadiyyat-ve-iqtisadiyyatin-esas-sektorlari-uzre-strateji-yol-xeritesi-davamli-inkisafa-kecid-konsepsiyasidir/

**2.** http://www.e-qanun.az/framework/33346

**3.** http://www.e-qanun.az/framework/34254

**4.** https://azertag.az BVF

**5.** https://cyberleniinka.ru/articcles.%%/razrabotka-tehnologicheskoy-dorozhnoy-karty-- -realnogo-sektora-ekonomiki//

**6.** https://economies.gov.az/image/pdf//qanunvericilik/fermanlar/n-%21786.pdf

**7.** https://vergiler.az/news/economy/2024.html

**8.** https://www.az.undqi.org/content/azerbaiijjan/az/home.html BMT-nin İnkişaf Proqramı (UNDP)

**9.** https://www.economi.gov.az/articles/internationaal-report.//23415

**10.** https://www.economy.gov.az/article/masallida-senaye-parklari-ve-mehellelerinde-istehsal-olunan-mebel/mehsullarinin-sergi-satish/merkezi/achilib/30192

**11.** www.socar.az -Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

**12.** www.cbar.az -Azərbaycan Respublikasının Mərkəzi Bankı

**13.** www.maliyye.gov.az - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

**14.** www.stat.gov.az - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

## ƏLAVƏLƏR

**Əlavə 1.**

**Cədvəl 1:Azərbaycan Respublikasının 2020-ci ilin I rübü üzrə makroiqtisadi göstəriciləri**

| **Göstəricinin adı** | **2020-ci ilin yanvar-mart ayları faktiki** | **2020-ci ilin yanvar-mart ayları 2019-cu ilin yanvar-mart aylarına nisbətən, faizlə** | **2019-cu ilin yanvar- mart ayları 2018-ci ilin yanvar- mart aylarına nisbətən, faizlə** |
|---|---|---|---|
| ÜDM, mln AZN | 18 451,2 | 102,1 | 104,1 |
| Adambaşına düşən ÜDM, AZN | 1 730,2 | 101,2 | 103,2 |
| Sənaye məhsulu, mln AZN | 10 534,1 | 101,8 | 104,4 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, mln AZN | 2 839,4 | 105,5 | 92,0 |
| Kənd təsərrüfatı məhsulu, mln AZN | 985,7 | 104,7 | 104,4 |
| Nəqliyyat sahəsində yük nəql edilməsi, milyon ton | 51,7 | 98,7 | 103,2 |
| Nəqliyyat sahəsində sərnişin daşınması, milyon sərnişin | 431,6 | 94,6 | 102,9 |
| İnformasiya və rabitə xidmətləri, mln AZN | 553,6 | 116,9 | 108,5 |
| Pərakəndə ticarət dövriyyəsi, mln AZN | 9 352,3 | 102,4 | 103,8 |
| Əhaliyə təqdim edilən ödənişli xidmətlər, mln AZN | 2 015,2 | 95,7 | 101,2 |
| Dövlət büdcəsinin gəlirləri, mln AZN | 7 810,9 | 154,6 | 119,5 |
| Dövlət büdcəsinin xərcləri, mln AZN | 5 227,8 | 102,1 | 114,7 |
| Dövlət büdcəsinin profisiti, mln AZN | 2 548,1 | x | X |
| Əhalinin nominal gəlirləri, mln AZN | 13 452,3 | 106,8 | 105,4 |
| adambaşına düşən nominal gəlirlər, AZN | 1 351,9 | 112,7 | 104,5 |
| Əhalinin banklardakı əmanətləri, 2020-ci il 01 mart vəziyyətinə, mln AZN | 8 694,3 | 105,7 | 106,1 |
| Kredit qoyuluşları, 2020-ci il 01 mart vəziyyətinə, mln AZN | 15 694,5 | 122,0 | 112,3 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 712,3* | 128,5** | 108,5*** |
| İstehlak qiymətlərinin indeksi | X | 104,0 | 102,2 |

| | | | |
|---|---|---|---|
| Əhalinin sayı, 2020-ci il 01 mart vəziyyətinə, min nəfər | 10 179,5 | 100,7 | 100,7 |
| Xarici ticarət dövriyyəsi[1)], mlyn. ABŞ $ | 4 773,0* | 94,7** | 114,9*** |
| faktiki qiymətlərlə müqayisəli qiymətlərlə | X | 84,2** | 107,1*** |
| Ixrac | | | |
| faktiki qiymətlərlə | 3 095,8* | 101,4** | 99,2*** |
| müqayisəli qiymətlərlə | X | 98,0** | 104,4*** |
| İdxal | | | |
| faktiki qiymətlərlə | 1 787,2* | 82,7** | 148,6*** |
| müqayisəli qiymətlərlə | X | 65,4** | 118,3*** |

**Mənbə:** Dövlət Statistika Komitəsi
https://www.stat.gov.az/news/macroeconomy.php?page=1, 2020

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Azərbaycan Respublikasının 2020-ci ilin I rübü üzrə makroiqtisadi göstəriciləri ........ 79
**Cədvəl 2**. Ümumi daxili məhsulun istehsalı, milyon manat ........ 33
**Cədvəl 3**. İqtisadiyyatın sahələri üzrə əsas kapitala ynəldilmiş vəsaitlərin dəyəri ........ 36
**Cədvəl 4.** Diki-Fuller (ADF) vahid kk testinin nəticələri ........ 37
**Cədvəl 5**. VAR modelinin nəticələri ........ 38
**Cədvəl 6.** Avtokorelyasiya test nəticələri ........ 39
**Cədvəl 7.** Modelin qalıqlarının nəticələri ........ 39
**Cədvəl 8.** Johansen testi nəticələri ........ 40
**Cədvəl 9.** VECM nəticələri ........ 40
**Cədvəl 10.** İqtisadi vəziyyətin yekun qiymətləndirilməsi: GZİT təhlili ........ 70

## Şəkillərin siyahısı

**Şəkil 1:** "Ağır və maşınqayırma sənayesinin inkişafı SYX"-nin 2017-ci il üzrə icra vəziyyəti ........ 50

## Qrafiklərin siyahısı

**Qrafik 1:** 2012-2020-ci illərdə respublikada ümumi daxili məhsulun həqiqi və nəzəri səviyyələri ........ 35
**Qrafik 2:** SYX-nin icra vəziyyəti (2019) ........ 45

## Sxemlərin siyahısı

**Sxem 1:** Özəlləşdirmədən sonra istismar və maliyyə sahələrində irəliləyişlər ........ 66